QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 085 (5557) 3 **may** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# Azərbaycan dünyanın diqqət mərkəzinə çevrilib

*Prezident İlham Əliyev: "İqtisadi sahədə əldə edilmiş uğurlar, nailiyyətlər tarixi nailiyyətlərdir"*

Səh 2




**Azərbaycanla Britaniya arasında yüksək səviyyəli siyasi, iqtisadi və mədəni münasibətlər mövcuddur** 3



**"Azərbaycan insan alverinə qarşı mübarizədə lazımi tədbirlər görür"** 4



**Sergey Melniçuk: "Azərbaycanın uğurlu inkişaf yolunun əsasında Heydər Əliyevin uzaqgörən siyasəti durur"** 9



**KİVDF-nin Müşahidə Şurasının növbəti iclası keçirilib** 5



**Sevinc Fətəliyeva: Real faktlara söykənməyən "hesabat" qəbuledilməzdir** 5



**"Siyasətin dili söyüş dili olmamalıdır"** 10



14 **Saxta dollar dəyişmək istəyən əcnəbilər saxlanılıb**



14 **"Quska" açdı sandığı, tökdü pambığı**



16 **Formula 1 Azərbaycan Qran-Prisini 94 min tamaşaçı izləyib**



# Azərbaycan dünyanın diqqət mərkəzinə çevrilib



## Prezident İlham Əliyev: “İqtisadi sahədə əldə edilmiş uğurlar, nailiyyətlər tarixi nailiyyətlərdir”

Azərbaycanda qazanılan uğurlar son illər həyata keçirilən davamlı islahatların nəticəsidir. Ötən dövrdə ÜDM istehsalı 3,2 dəfə artıb, sənayeləşmə, aqrar sektorun inkişafı, yeni emal müəssisələrinin yaradılması, kimya sənayesinin yenidən qurulması və digər tədbirlər qeyri-neft sektorunda məhsul istehsalını stimullaşdırıb. Bunun sayəsində bir sıra məhsulların idxalı azalıb, ixracı isə artıb. Həyata keçirilən iqtisadi layihələr ölkənin modernləşməsinə və dünyanın tranzit mərkəzlərindən birinə çevrilməsinə imkan yaradıb. Bu layihələr ölkəmizin iqtisadi inkişafına güc qatmaqla yanaşı, dünyada siyasi nüfuzunu da artırıb. Aparılan düzgün, məqsədyönlü siyasət sayəsində Azərbaycan dünyanın diqqət mərkəzinə çevrilib. Ölkəmiz Şərqdən Qərbə, Şimaldan Cənuba daşınan yüklərin qovşağında mükəmməl nəqliyyat və logistika imkanlarına malikdir. Prezident İlham Əliyev andiçmə mərasimində Azərbaycanda həyata keçirilən iqtisadi islahatların əhəmiyyətini yüksək qiymətləndirərək demişdir ki, “Biz son 15 il ərzində iqtisadi islahatlar aparmışıq və iqtisadi məsələlərə xüsusi diqqət yetirmişik. Çünki mən dəfələrlə demişəm və həyat bunu göstərir, ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər. Əgər sən kimdənsə asılısansa, - ya kreditdən asılısan, ya başqa dövlətdən asılısan, - heç vaxt, sözün əsl mənasında, müstəqil siyasət aparmaq iqtidarında olmayacaqsan. Ona görə biz çalışırdıq ki, iqtisadi müstəqilliyə çataq və buna nail olduq. Biz indi heç bir kreditə möhtac deyilik, özümüz kreditlər veririk. Bizim dövlət borcumuz ümumi daxili məhsulumuzun 20 faizini təşkil edir. Mən qarşıya vəzifə qoymuşam və biz gələcək illərdə dövlət borcumuzu daha da aşağı səviyyəyə salmalıyıq. İqtisadiyyat son 15 il ərzində 3,2 dəfə artıbdır. Bu, çox böyük göstəricidir. Əlbəttə ki, bu göstəricinin tərkibində neft amili xüsusi yer tutur. Ancaq bununla bərabər, bizim qeyri-neft ixracımız 15 il ərzində dörd dəfədən çox artıbdır. Bu da onu göstərir ki, bizim islahatlarımız böyük səmərə verir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. Valyuta ehtiyatlarımız 24 dəfə artmışdır, bu gün bu ehtiyatlar 44 milyard dollara bərabərdir. Ölkəmizə 230 milyard dollardan çox sərmayə qoyulub. Ölkəmizdə çox gözəl investisiya iqlimi vardır. Xarici və yerli sərmayə ölkəmizə bundan sonra da qoyulacaqdır. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliyinə görə 35-ci yerə layiq görübdür. İnkişaf indeksinə görə biz üçüncü yerdəyik. Yəni bu göstəricilər özlüyündə hər şeyi açıq-aydın bildirir, onu göstərir ki, iqtisadi sahədə əldə edilmiş uğurlar, nailiyyətlər tarixi nailiyyətlərdir”.

Azərbaycanda reallaşan iqtisadi islahatların əsas hədəfi qeyri-neft sektorunun inkişafıdır. Bu sahədə indiyədək görülən işlər uğurlu nəticələrə nail olmağa imkan yaradıb. Onların sırasında ən önəmlisi sənaye parklarının və sənaye məhəllələrinin yaradılmasıdır. Artıq bir neçə sənaye parkı və sənaye məhəlləsi fəaliyyətə başlayıb. Keçən ilin sonunda təkcə Sumqayıt Kimya Sənaye Parkında 4 müəssisə açılıb, 3 müəssisənin təməli qoyulub. Cari ildə isə əlavə 2 nəhəng zavod işə düşəcək. Bu, “SOCAR Polymer” və Azot Gübrələri zavodlarıdır. Qeyd edək ki, həmin müəssisələrin tikintisinə 2 milyard dollara yaxın vəsait qoyulub. Xatırladaq ki, hazırda Sumqayıt Kimya Sənaye Parkında 17 rezident var və ümumilikdə, buraya yatırılan sərmayənin həcmi 2,8 milyard dollardır. Həmin vəsait özəl sektor tərəfindən yatırılır. Sahibkarların buna həvəs göstərməsi də səbəbsiz deyil. Azərbaycanda olan münbit investisiya mühiti və mükəmməl qanunvericilik bazası sahibkarların vəsaitlərinin qorunmasına təminat verir.

Mingəçevir Yüngül Sənaye Parkının da xüsusi əhəmiyyəti var. İlk növbədə, bu, iqtisadi ağırlığın tədricən bölgələrlə bölüşdürülməsi deməkdir. İkinci bir tərəfdən, Mingəçevir şəhərinin yaxınlığında kənd təsərrüfatı rayonları var. Park yaradılarkən, bu amil nəzərə alınıb. Belə ki, parkda, əsasən, xammal kimi aqrar sektorda istehsal edilən məhsullardan istifadə olunacaq. Bu ilin əvvəlində sənaye parkında iki böyük iplik fabriki açılıb. Qurulan müəssisələr indiyədək ölkəmizdə yaradılan iplik fabriklərinin yarısı qədər məhsul istehsal edəcək. Başqa sözlə, istehsal gücləri 20 min ton iplikdir. Burada istehsal olunan məhsulun çox hissəsinin ixrac edilməsi nəzərdə tutulub. Parkdakı müəssisələr şəhər əhalisinin məşğulluq probleminin həllinə də kömək edəcək. Məlumat üçün bildirək ki, parkda nəzərdə tutulan müəssisələr fəaliyyətə başladıqdan sonra, ən azı, 700-750 nəfər işlə təmin olunacaq.

Ölkənin sənayeləşməsi və onun coğrafiyasının genişlənməsində sənaye məhəllələri də xüsusi əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, həyata keçirilən iqtisadi siyasətin hədəflərindən biri bütün rayonlarda sənaye məhəllələrinin yaradılmasıdır. Sənaye məhəllələrinin ilki olan Neftçala Sənaye Məhəlləsində ildə 10 min avtomobil istehsal edə bilən zavodun açılışı olub. Zavodda 300 nəfərdən çox işçi çalışır. İstehsal edilən avtomobillər xaricə də ixrac olunacaq.

Hazırda Hacıqabul, Masallı və Sabirabad sənaye zonalarında istehsal və xidmət müəssisələri tikilir. Bu sənaye zonalarında müxtəlif istiqamətlər üzrə məhsul istehsalı planlaşdırılıb. Burada sənaye, kənd təsərrüfatı, emal, həmçinin, xidmət müəssisələri fəaliyyət göstərəcək. Həmin zonalarda fəaliyyət göstərən müəssisələrin bir çoxunun kənd təsərrüfatı məhsullarından xammal kimi istifadə etməsi bölgələrdə aqrar sektorun inkişafına təkan verəcək, alıcı sarıdan fermerlərin işi asanlaşacaq. Yəni məhsul istehsal etdikdən sonra onu kimə satacağı barədə fikirləşməyə ehtiyac qalmayacaq.

Gəncə Avtomobil Zavodunun fəaliyyəti ölkəmizdə traktorlara olan tələbatın ödənilməsində xüsusi əhəmiyyət kəsb edir. İndiyədək müəssisədə 10 min traktor istehsal olunub. Bunun sayəsində aqrar sektorda çalışan fermerlər münasib qiymətə “Gəncə-Belarus” traktorlarını əldə edə bilirlər. Həmin nəqliyyat növü aqrar sektorda ən çox istifadə olunandır. Əgər bu müəssisə fəaliyyətə başlamasaydı, biz həmin texnikanı xarici ölkələrdən almalı idik. Belə hal ölkədən valyuta axınına səbəb olmaqla yanaşı, onun qiymətinin də yüksək olmasını şərtləndirərdi. Bu gün müəssisə özünün ikinci inkişaf mərhələsinə qədəm qoyur. Belə ki, burada daxili tələbat ödənilməklə yanaşı, xaricə məhsul ixrac etmək üçün zəruri tədbirlər görülür. Bu, o deməkdir ki, yaxın vaxtlarda Gəncədə istehsal olunan texnikalar xarici bazarda satılacaq.

Bir sözlə, bu gün Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi sənayeləşmə siyasətini tam sürəti ilə həyata keçirməkdədir. Əldə olunan uğurlar isə, onu göstərir ki, respublikamız ciddi nailiyyətləri ilə diqqət çəkməkdədir.

***“Səs” Analitik Qrupu***

## Tokay Həbib oğlu Məmmədov



Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Azərbaycan heykəltəraşlıq məktəbinin görkəmli nümayəndəsi, SSRİ və Azərbaycan dövlət mükafatları laureatı, əməkdar incəsənət xadimi, xalq rəssamı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, professor Tokay Həbib oğlu Məmmədov 2018-ci il mayın 2-də ömrünün 91-ci ilində vəfat etmişdir. Tokay Məmmədov 1927-ci il iyul ayının 17-də Bakı şəhərində anadan olmuşdur. Məktəbi bitirdikdən sonra o, 1942-1945-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Məktəbində oxumuş, 1945-1951-ci illərdə Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1951-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Məktəbində müəllim kimi başlayan Tokay Məmmədov 1958-ci ilədək burada çalışmışdır. O, 1966-1988-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun “Rəsm” kafedrasının müəllimi, 1988-1992-ci illərdə “Heykəltəraşlıq” kafedrasının müdiri, 1992-2001-ci illərdə həmin kafedranın professoru vəzifələrində işləmişdir. Tokay Məmmədov 2001-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının “Heykəltəraşlıq” kafedrasının professoru olmuşdur.

Tokay Məmmədov 1952-ci ildən başlayaraq müxtəlif illərdə Azərbaycan Rəssamlar İttifaqının İdarə Heyətində məsul vəzifələr tutmuş, 1970-1972-ci illərdə Azərbaycan Rəssamlar İttifaqının sədri seçilmişdir. O, 1975-ci ildən SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü olmuşdur. Azərbaycan təsviri sənətini zənginləşdirən qiymətli əsərləri ilə Tokay Məmmədov milli mədəniyyətimizin inkişafında böyük xidmətlər göstərmişdir. O, müxtəlif janrlarda yaratdığı əsərləri ilə ölkəmizin heykəltəraşlıq tarixinə parlaq səhifələr yazmışdır. Sənətkar Azərbaycanın dahi şəxsiyyətlərinin unudulmaz obrazlarını monumental abidələrə çevirərək mədəniyyət xəzinəmizi daha da zənginləşdirmişdir. Onun sənətin əbədi mövzularını bütün dərinliyi ilə əks etdirən əsərləri Azərbaycan heykəltəraşlığının mükəmməl nümunələridir. Tokay Məmmədovun yaradıcılığının məhsulu olan, Bakının küçə və meydanlarını bəzəyən əsərlər paytaxtımızın görkəminin ayrılmaz hissəsini təşkil edir. Doğma torpağa, xalqına bağlı olan sənətkar kimi onun müstəqil Azərbaycan mədəniyyətinin çiçəklənməsi naminə verdiyi töhfələr əvəzsizdir. Mahir heykəltəraş hələ gənclik illərindən etibarən öz fitri istedadı sayəsində mütəxəssislərin böyük rəğbətini qazanmış, ölkəmizdə və onun hüdudlarından kənarda tanınmışdır. Sənətkarın dünyanın bir çox ölkələrində nümayiş etdirilən əsərləri Azərbaycan mədəniyyətinin şöhrətini daha da artırmışdır.

Tokay Məmmədov heykəltəraşlığı pedaqoji fəaliyyətlə uğurla əlaqələndirərək gənc heykəltəraşlar nəslinin yetişdirilməsi işində əvəzsiz xidmətlər göstərmişdir. Onun zəngin irsi bir çox heykəltəraşın bədii-estetik zövqünün formalaşmasında mühüm rol oynamış, onların peşəkarlığının təşəkkülündə böyük əhəmiyyət kəsb etmişdir. Tokay Məmmədovun 1971-1975-ci illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı kimi ictimai fəaliyyəti də təqdirəlayiq olmuşdur.

Tokay Məmmədovun yaradıcılığı hər zaman diqqət mərkəzində olmuş və daim yüksək qiymətləndirilmişdir. O, bir çox ölkələrin mükafatları ilə təltif edilmişdir. Müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından “Şərəf” və “Şöhrət” ordenlərinə, “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”na layiq görülmüşdür. Böyük sənətkar Tokay Həbib oğlu Məmmədovun işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev**
**Mehriban Əliyeva**
**Novruz Məmmədov**
**Oqtay Əsədov**
**Ramiz Mehdiyev**
**Əli Əhmədov**
**Əbülfəs Qarayev**
**Ceyhun Bayramov**
**Fərhad Xəlilov**
**Tahir Salahov**
**Ömər Eldarov**
**Ağəli İbrahimov**
**Salxab Məmmədov**
**Altay Hacıyev**
**Fazil Nəcəfov**
**Fuad Salayev**
**Arif Hüseynov**
**Xanlar Əhmədov**
**Nazim Bəykişiyev**

# Azərbaycanla Britaniya arasında yüksək səviyyəli siyasi, iqtisadi və mədəni münasibətlər mövcuddur

*İqtisadi və geostrateji üstünlüklərindən maksimim yararlanmaqla daha yüksək inkişaf fazasına çatan Azərbaycanın Cənubi Qafqazın lider dövlətinə çevrilməsi bütün dünyada etiraf olunan həqiqətdir*





***Azərbaycanda keçirilmiş prezident seçkisindən sonra Cənab İlham Əliyevin qardaş Türkiyədən sonra növbəti xarici səfərini Böyük Britaniyaya etməsi göstərdi ki, demokratiyanı təşviq edən Qərbin mühüm siyasi mərkəzləri ölkəmizdəki prezident seçkilərini təqdir edirlər.***

Azərbaycan Respublikasının dünyanın müxtəlif qütblərində qərar tutan dövlətlərlə qurduğu ikitərəfli əlaqələr, mehribban dostluq və əməkdaşlıq münasibətləri ildən-ilə genişlənərək məzmunca yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Əsas məqamlardan biri də odur ki, bu gün iqtisadi və geostrateji üstünlüklərindən maksimim yararlanmaqla daha yüksək inkişaf fazasına çatan Azərbaycanın Cənubi Qafqazın lider dövlətinə çevrilməsi bütün dünyada etiraf olunan həqiqətdir.

Azərbaycan Prezidenti ilə görüşən hər bir dövlət və hökumət başçısı, xarici ölkələrin nümayəndə heyətləri, beynəlxalq təşkilatların təmsilçiləri Cənubi Qafqazın əsas söz sahibi olan Azərbaycanla əməkdaşlığa böyük önəm verdiklərini, münasibətləri dərinləşdirməkdə maraqlı olduqlarını birmənalı şəkildə bəyan edirlər. Çünki hər biri Azərbaycanın etibarlı tərəfdaş olduğunu, dünyanı təhdid edən qlobal problemlərin həllinə böyük töhfələr verdiyini görür və qəbul edir. Digər tərəfdən, Azərbaycanın gənc müstəqil dövlət kimi əldə etdiyi nailiyyətlər genişmiqyaslı və sanballıdır. Bu uğurlar ölkəmizin dünya birliyində böyük nüfuz qazanmasına, sivil və modern dövlətlərlə bir sırada dayanmasına zəmin yaradıb, respublikamızın beynəlxalq rəydə artan imicə malik olmasını təmin edib. Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Böyük Britaniyaya etdiyi səfər bunları bir daha təsdiq etdi.

Böyük Britaniya Azərbaycanın müstəqilliyini 1991-ci ilin dekabrında tanıyıb. İldən-ilə iki ölkə arasındakı münasibətlər daha da dərinləşib. İki ölkə arasında hazırkı siyasi münasibətlərin təməli Ulu Öndər Heydər Əliyevin Birləşmiş Krallığa 1994-cü və 1998-ci illərdə həyata keçirdiyi səfərləri zamanı qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Krallığa səfərləri yüksək səviyyəli siyasi dialoqun gücləndirilməsinə və ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə öz töhfəsini verib. Bu gün iki ölkə arasında yüksək səviyyəli siyasi, iqtisadi və mədəni münasibətlər mövcuddur. Bu ölkə Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyir. Birləşmiş Krallıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmuş hüququn norma və prinsipləri əsasında, sülh yolu ilə həllinin tərəfdarıdır və ATƏT-in Minsk Qrupu tərəfindən göstərilən səylərə dəstəyini ifadə edir. Bu gün Azərbaycanla Birləşmiş Krallıq arasındakı əlaqələri bütövlükdə strateji xarakterli münasibətlər adlandırmaq olar. Britaniyanın BP şirkəti 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"ndə yer alan əsas xarici neft şirkətlərindən biridir.



Bütövlükdə, ötən 23 ildə BP Azərbaycanın neft-qaz sektorunun inkişafı və modernləşdirilməsinə verdiyi mühüm töhfələr vasitəsilə enerji sənayesində Azərbaycanın əsas tərəfdaşı olaraq qalmaqdadır. Bu tərəfdaşlıq nəticəsində Böyük Britaniya Azərbaycana ən çox investisiya yatıran ölkəyə çevrilib. Hansı ki, bu investisiyalar ölkəmizdəki bütün xarici investisiyaların təxminən 50 faizini təşkil edir. Bunun da nəticəsində Britaniya Azərbaycanda ən böyük xarici investor ölkə statusunu qoruyur. Ümumilikdə isə, Azərbaycanda Britaniyanın təxminən 400-ə yaxın şirkəti fəaliyyət göstərir, həmçinin Bakıda xeyli Britaniya vətəndaşı yaşayır.

"Əsrin müqaviləsi"ndən sonra Azərbaycanın həyata keçirdiyi bütün neft-qaz layihələrində Böyük Britaniyanın BP şirkəti iştirak edib. Prezident İlham Əliyevin Böyük Britaniyaya bu səfəri də iki ölkə arasında enerji sahəsində əməkdaşlıqla bağlı yeni mərhələnin əsasını qoydu.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey Azərbaycan Prezidentinin bu səfərinin iqtisadi və ticarət, enerji, təhlükəsizlik məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağını bildirdi və SOCAR-la BP şirkəti arasında imzalanacaq sazişin əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğuladı. Tereza Mey Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakına və verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin gündəliyi çox genişdir və ölkələrimiz müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, sərmayə qoyuluşu sahələrində fəal əməkdaşlıq həyata keçirir. Hazırda ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi istiqamətində fəal iş aparıldığı, bunun üçün böyük potensialın olduğunu bildirən dövlət başçısı Böyük Britaniyanın bir çox şirkətlərinin Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərdiyini, SOCAR-BP əməkdaşlığı strateji xarakter daşıdığını diqqətə çatdırdı. İkitərəfli münasibətlərimizin tərəfdaşlıq əlaqələrinə əsaslandığını Prezident İlham Əliyev onun Böyük Britaniyaya səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Sonra Prezident İlham Əliyevin və Baş nazir Tereza Meyin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR, "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalandı.

D230 bloku Xəzər dənizində Bakının şimal-şərq istiqamətində təxminən 135 kilometr məsafədə yerləşir. Blok təxminən 3200 kvadratkilometr ərazini əhatə edir. Blokun məhsuldar laylarının gözlənilən dərinliyi təxminən 3500 metrdir. 25 illik müddəti əhatə edən sazişə əsasən, BP 50 faiz iştirak payına malik olmaqla kəşfiyyat dövründə operator olacaq, iştirak payının digər 50 faizi isə SOCAR-a məxsus olacaq. Azərbaycan öz tərəfdaşı kimi Böyük Britaniya ilə ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə mühüm əhəmiyyət verir. Eyni zamanda, Birləşmiş Krallıq da ölkəmizlə münasibətlərin dərinləşməsində maraqlıdır. Azərbaycan Prezidentinin Londona səfəri və imzalanan yeni neft sazişi bunu təsdiq etdi. Neft sazişi həm də onu təsdiq edir ki, Azərbaycan tam müstəqil enerji siyasəti həyata keçirir. Digər tərəfdən, həyata keçirilən neft layihələri, həm də Azərbaycanın iqtisadi müstəqilliyinin və inkişafının təməlində dayanan əsas faktordur.

***"Səs" Analitik Qrupu***

# Akademik Zərifə Əliyeva haqqında kitabın və elektron məlumat bazasının təqdimatı olub



Mayın 2-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında görkəmli oftalmoloq-alim, Əməkdar Elm Xadimi, akademik Zərifə Əliyevaya həsr edilmiş "Zərifə Əliyeva. Biblioqrafiya" kitabının və "Zərifə xanım Əliyeva - 95" adlı elektron məlumat bazasının təqdimatı olub. AZƏRTAC xəbər verir ki, tədbirdə rəsmi şəxslər, elm və mədəniyyət xadimləri iştirak ediblər.



Milli Kitabxananın direktoru Kərim Tahirov çıxış edərək görkəmli alimin keçdiyi həyat yolu haqqında məlumat verib. Biblioqrafiyanın əhəmiyyətindən danışan direktor deyib ki, bu nəşr Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə layihəsi əsasında ərsəyə gəlib. "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından oxuculara təqdim olunan bu yeni biblioqrafiyaya yeni bölmələr və yarımbölmələr əlavə edilib. Yeni nəşrdə son illərin materialları da öz əksini tapıb. Biblioqrafiya alimin 1958-2018-ci illərdə Azərbaycan, rus və ingilis dillərində nəşr edilmiş kitabları, elmi konqres, sessiya və konfrans materiallarında və dövri mətbuatda dərc edilmiş məqalələri haqqında materialları əhatə edir. Nəşrdə "Görkəmli şəxsiyyətlər Zərifə Əliyeva haqqında", "Həyat və fəaliyyətinin əsas tarixləri", "Zərifə Əliyevanın xatirəsinin əbədiləşdirilməsi" bölmələri yer almaqla yanaşı, ilk dəfə olaraq "Zərifə Əliyeva dünya kitabxanalarında" bölməsi əlavə edilib. Vəsaitə daxil edilmiş materiallar xronoloji ardıcıllıqla, daxildə isə əlifba sırası ilə qruplaşdırılıb. Qeyd edilib ki, vəsaitin sonunda oxuculara kömək göstərmək və biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə köməkçi bölmələr - "Zərifə Əliyevanın əsərlərinin əlifba göstəricisi", "Zərifə Əliyeva haqqında yazan müəlliflərin əlifba göstəricisi" və "Həmmüəlliflərin əlifba göstəricisi" də tərtib olunub.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev böyük alim, akademik Zərifə Əliyevanın elmi, fəaliyyətindən, onun ömür-gün yoldaşı ulu öndər Heydər Əliyevə olan böyük sevgisindən danışıb. Nazir müavini deyib ki, Azərbaycanın səhiyyəsinə böyük töhfələr vermiş bu insanı xatırlayanda hər bir azərbaycanlının gözü önündə mənəvi kamilliyin ən uca zirvəsində dayanan, əziz xatirəsi milyonlarla insanın qəlbində yaşayan, insanların gözlərinə nur verən görkəmli elm fədaisinin işıqlı çöhrəsi canlanır. Eyni zamanda, biz nəcib Azərbaycan qadını, böyük bir nəslin layiqli övladı, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görürük. Yüksək intellekt, geniş erudisiya, zəngin mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın portretini tamamlayır. Zərifə xanım kövrək çiyinlərində böyük məsuliyyət və fədakarlıqla Ümummilli Liderlə çiyin-çiyinə getmək, onun dayağı olmaq, qayğısına qalmaq və ağır günlərdə dərdinə şərik olmaq yükünü daşıdı. O övladlarını layiqli vətəndaşlar kimi, öz nəslinin yüksək mənəvi dəyərlərinin varisi kimi yetişdirdi.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Tibb Universitetinin prorektoru Rauf Əliyev görkəmli alimin yaradıcılığından, insani keyfiyyətlərindən söz açıblar. Bildirilib ki, onun mükəmməl biliyə və bacarığa malik oftalmoloqların və ümumiyyətlə, tibb işçilərinin hazırlanmasında böyük əmək sərf etməsi danılmazdır. Dünya oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Görkəmli alimin keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Tədbirdə digər çıxış edənlər də alimin yaradıcılığı və gördüyü işlərlə bağlı fikirlərini bölüşüblər. Sonra "Zərifə xanım Əliyeva - 95" elektron məlumat bazasının təqdimatı olub. Tədbir çərçivəsində Milli Məclisin deputatı, yazıçı-dramaturq Hüseynbala Mirələmovun "Zərifə Əliyeva" adlı kitabının yenidən çap olunmuş variantı da təqdim edilib.

# Bahar Muradova: "Azərbaycan insan alverinə qarşı mübarizədə lazımi tədbirlər görür"



Azərbaycan insan alverinə qarşı mübarizədə lazımi tədbirlər görür. SİA-nın məlumatına görə, bunu Mili Məclisin vitse-spikeri Bahar Muradova parlamentin İnsan hüquqları komitəsinin və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin birgə iclasında deyib.

B.Muradova bildirib ki, Azərbaycanın bu sahədə üzərinə götürdüyü öhdəliklərdən, beynəlxalq konvensiyaların üzərimizə qoyduğu öhdəliklərdən, "İnsan alverinə qarşı mübarizə haqqında" qanunundan və Cinayət Məcəlləsindən irəli gələn tələblər yerinə yetirilməkdədir: "Bu sahədə Azərbaycanın əldə etdiyi nəticələr kifayət qədər müsbətdir. İnsan alverinə qarşı mübarizə özü-özlüyündə çox vacib bir sahədir. Ona görə ki, insanın mənəviyyatına, ləyaqətinə yönəlmiş cinayətlər çox ağır cinayətdir. Əlbəttə ki, bütün dünyada, Azərbaycanda insanı alçaldan, onun ləyaqətinə və heysiyyatına toxunan bu cinayətin profilaktikası, qarşısının alınması, cinayətkarların cəzasına çatdırılması və qurbanların psixologiyasına və mənəviyyatına dəymiş ziyanın aradan qaldırılması istiqamətində fəaliyyət çox vacibdir".

# Fransanın "La Baule+" jurnalında Azərbaycanla bağlı reportaj dərc edilib

Fransanın "La Baule+" jurnalında Azərbaycanla bağlı reportaj dərc edilib. Reportajda Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadi inkişafı, təbii sərvətləri, Avropanın enerji təhlükəsizliyində rolu, eləcə də Azərbaycan Xalq Cümhuriyyəti barədə ətraflı məlumat verilir. Ölkəmizdə müxtəlif dinlərin və millətlərin nümayəndələrinin mehriban şəkildə yaşadıqları diqqətə çatdırılır.

Müəllif Yannik Urryen aprelin 11-də Azərbaycanda keçirilmiş prezident seçkilərini müşahidə etdiyini, səsvermənin şəffaf və ədalətli keçdiyini bildirir. Paytaxt Bakı barədə söhbət açan jurnalistin ölkəmizdə görüşdüyü rəsmi şəxslərdən aldığı müsahibələr də reportajda yer alıb. Fransalı jurnalist Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdən də bəhs edir.

# "Azərbaycanda qeyri-hökumət təşkilatları: tarix və inkişaf" kitabının təqdimatı olub



Mayın 2-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyevin "Azərbaycanda qeyri-hökumət təşkilatları: tarix və inkişaf" adlı kitabının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, kitabın elmi redaktoru Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov, rəyçiləri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birinci prorektoru, professor Əlikram Abdullayev, Avropa İnsan Haqları Məhkəməsinin hakimi, professor Lətif Hüseynov, Birmingem Universitetinin professoru, Avropa Şurasının Venesiya Komissiyasının eksperti Jeremi Makbrayd, Milli Məclisin deputatı, professor Hikmət Babaoğlu və AMEA-nın Fəlsəfə İnstitutunun professoru Rəna Mirzəzadədir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Hikmət Babaoğlu, Azərbaycan Turizm və Menecment Universitetinin kafedra müdiri İsrayıl İsgəndərov, Dövlət İdarəçilik Akademiyasının dosenti İnşallah Qafarov, Milli Qeyri-Hökumət Təşkilatları Forumunun sədri Rauf Zeyni, Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri Rufiz Qonaqov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu və başqaları kitabın əhəmiyyətindən danışıblar. Bildirilib ki, bu monoqrafiya vətəndaş cəmiyyəti quruculuğu istiqamətində gedən prosesləri əks etdirən yeni və aktual elmi mənbədir. Müəllif elmi tədqiqatında QHT-nin yaranma tarixini və inkişafını, ictimai sektorun təkamül mərhələlərini geniş araşdırıb, bu sahədə milli və beynəlxalq təcrübəni müqayisəli şəkildə tədqiq və təhlil edib. Vətəndaş cəmiyyəti haqqında mövcud nəzəriyyələrə müəllifin elmi baxışı və yaradıcı mövqeyi, onun qaldırdığı bir sıra aktual məsələlər monoqrafiyanın dəyərini daha da artırır. Sonda çıxış edən müəllif Azay Quliyev kitab haqqında məlumat verib.

# KİVDF-nin Müşahidə Şurasının növbəti iclası keçirilib



Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Müşahidə Şurasının növbəti iclası keçirilib. Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki məsələlər barədə məlumat verib.

KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, birinci məsələ - Fondun jurnalist təşkilatları üçün keçirdiyi "Azərbaycan media məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzularında müsabiqənin elanı barədə Fondun icraçı direktoru Vüqar Səfərli məlumat verib. O, jurnalist təşkilatları üçün təşkil olunan ənənəvi müsabiqənin mediada ədəbi dilin normalarının qorunması və kütləvi informasiya vasitələri əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədinə xidmət etdiyini bildirib. İcraçı direktor "Azərbaycanın media məkanında ədəbi dilin qorunması", "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzularını əhatə edən müsabiqənin mayın 4-dən 22-dək keçiriləcəyini, hər istiqamət üzrə qalib olacaq təşkilata layihənin icrası üçün mərhələli şəkildə 20 min manat maliyyə vəsaitinin ayrılacağını bildirib.

Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən Bəhruz Quliyev, İntiqam Hümbətov, Rasim Həsənov müsabiqənin kütləvi informasiya vasitələrində ədəbi dilin normalarının qorunması, bu sahədə mövcud nöqsan və çatışmazlıqların aşkar olunaraq aradan qaldırılmasına xidmət edən maarifləndirici tədbirlərin həyata keçirilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıblar. Müzakirələrin sonunda müsabiqə elanı səsə qoyularaq yekdilliklə təsdiq edilib.

Sonra icraçı direktor Vüqar Səfərli gündəlikdəki ikinci məsələ - Fondun Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü və Azərbaycan Milli Mətbuatının yaranmasının 143-cü ildönümü münasibətilə təşkil etdiyi fərdi jurnalist yazıları müsabiqəsinin elanı barədə məlumat verib. O bildirib ki, fərdi jurnalist yazıları müsabiqəsinin "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçirilməsi nəzərdə tutulur.

Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən Cəmaləddin Quliyev, Bəhruz Quliyev, Ayaz Mirzəyev və Ramiz Əskər ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyinin stimullaşdırılması baxımından əhəmiyyətini qeyd ediblər. Cari məsələlərin müzakirəsi zamanı V.Səfərli Fondun perspektiv fəaliyyət istiqamətləri barədə məlumat verib.



# Azərbaycanın və San-Marinonun Xarici İşlər nazirlikləri arasında Anlaşma Memorandumu imzalanıb

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan San-Marino Respublikasının xarici işlər üzrə dövlət katibi Nikola Renzinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin möhkəmləndirilməsində mütəmadi olaraq yüksək səviyyəli görüşlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

Tərəflər Azərbaycan və San-Marino arasında ticarət əlaqələrinin iki ölkənin potensialına uyğun olmadığını qeyd edib, bunun daha da dərinləşdirilməsi imkanları ətrafında fikir mübadiləsi aparıblar. Bu məqsədlə nazirlər iqtisadi-ticarət əlaqələrinin təşviq edilməsi üçün iki ölkənin biznes dairələri arasında birbaşa təmasların yaradılmasının və biznes forumların keçirilməsinin vacibliyini bildiriblər. Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub. Nazir Elmar Məmmədyarov ölkəmizin "Ekspo 2025"ə ev sahibliyi etmək üçün müraciət etməsi barədə həmkarına məlumat verib. Elmar Məmmədyarov həmsöhbətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesi haqda geniş məlumat verib, münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməli olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı nazirlər kənd təsərrüfatı, humanitar, turizm, idman və digər sahələrdə əməkdaşlıq imkanları barəsində fikir mübadiləsi aparıblar. Sonda tərəflər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə San-Marino Respublikasının Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu"nu imzalayıblar.

# Pakistanda ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə qolf turniri keçirilib



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Azərbaycanın Pakistandakı səfirliyinin və İslamabadın Bahriya rayonunun rəhbərliyinin təşkilatçılığı ilə Bahriya Qolf Klubunda qolf turniri və digər əyləncəli yarışlar keçirilib.

AZƏRTAC xəbər verir ki, turnirdə və digər yarışlarda Pakistanda akkreditə olunan diplomatik korpusun təmsilçiləri, tanınmış qolfçular və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Turnirin qaliblərinin mükafatlandırılması mərasimində Bahriya rayonunun icraçı direktoru, ehtiyatda olan general-mayor Məhəmməd Əli Xan və Bahriya Qolf Klubunun əməliyyatlar üzrə direktoru Semi Saveri bildiriblər ki, 1960-cı illərdən başlayaraq Azərbaycanın siyasi, iqtisadi, sosial və mədəni tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə təhsilin, infrastrukturun, həmçinin neft və qaz sənayesinin inkişafına mühüm töhfələr verən ulu öndər Heydər Əliyev 1993-cü ildə müstəqilliyinin itirilməsi təhlükəsi ilə qarşı-qarşıya qalan Azərbaycanda hakimiyyətə qayıdaraq ölkəni dərin böhrandan xilas edərək dinamik inkişaf yoluna çıxarıb. Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə ümummilli lider Heydər Əliyevin istər sovet dövründə, istərsə də müstəqillik illərində Vətən və xalq qarşısında misilsiz xidmətlərindən danışıb. Diplomat dahi şəxsiyyətin həyata keçirdiyi müdrik islahatlar nəticəsində ölkədə bütün sahələrdə möhkəm və davamlı inkişafın bərqərar edildiyini vurğulayıb. Qolf turnirinin ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilməsinin təsadüfi olmadığını bildirən səfir Ulu Öndərin Azərbaycanda idmanın inkişafına daim xüsusi önəm verdiyini diqqətə çatdırıb. Çıxışlardan sonra turnirin və əyləncəli yarışların qaliblərinə kuboklar, milli suvenirlər, ilk yerləri tutmuş qolfçulara isə Azərbaycana səyahət etmək üçün İslamabad-Bakı-İslamabad aviareyси üzrə dörd bilet təqdim olunub. Sonda ziyafət verilib və konsert proqramı təqdim edilib.

# Sevinc Fətəliyeva: Real faktlara söykənməyən "hesabat" qəbuledilməzdir



***"Avropa Şurası Parlament Assambleyasının (AŞPA) uydurma "korrupsiya hesabatı" heç bir real fakta söykənməyən, ermənipərəst mərkəzlərlə şübhəli sövdələşməsi olan bəzi avropalı "siyasətçilər"in Azərbaycanın ünvanına səsləndirdikləri şərböhtana, subyektiv mülahizələrə əsaslanır. Bu "hesabat"ın nə qədər qərəzli və qeyri-obyektiv olduğu, həqiqətdən uzaq olması orada əksini tapan absurd iddialardan da aydın şəkildə görünür. Bu hesabatda məntiq və ciddi yanaşma yoxdur. "Hesabat"ı oxuyanda Azərbaycana qara yaxmaq, onu bu təşkilatın gerçək gündəmindən kənarda qoymaq məqsədi aydın görünür". Bu fikirləri Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü, Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib.***

S.Fətəliyeva bildirib ki, real faktlara söykənməyən bu "hesabat" qəbuledilməzdir. Bəzi anti-Azərbaycan qüvvələrin ölkəmizə qarşı apardıqları qara piar kampaniyasının son dövrlər daha da fəallaşdığını müşahidə edirik. AŞPA-nın son "hesabat"ı bu kampaniyanın tərkib hissəsidir, Qərbdə mövcud olan islamofob və ermənipərəst qrupların təşkil etdiyi oyundur.

"Azərbaycan heç vaxt öz milli maraqlarını, müstəqil siyasətini kiməsə güzəştə getməyib və getməyəcək. Ölkəmizə qarşı təzyiqlər göstərmək cəhdləri hər zaman iflasa uğrayıb. AŞPA-da müxtəlif vaxtlarda ölkəmizə qarşı xoş niyyətə söykənməyən belə kampaniyalar müşahidə edilib və Azərbaycan dövləti belə addımlara qarşı müvafiq tədbirlər görüb. Bu "hesabat" AŞPA-da Azərbaycana qarşı ikili standartlar siyasətinin yeni dalğasının başlandığını göstərir. Bütün bu cəhdlər nəyə yönəlib? Azərbaycanı öz demokratiya yolundan döndərməyə? Azərbaycanı radikallaşdırmağa? Dəyərlərimizi dəyişdirməyə? Bu, heç zaman baş verməyəcək. Bütün bu cəhdlər əbəsdir. Azərbaycan heç zaman öz demokratiya yolundan dönməyəcək. Bütün bu hiylələr oyunlara, təzyiqlərə və ədalətsizliklərə baxmayaraq, biz demokratiya dəyərlərinə sadiqliyimizi qoruyub saxlayacağıq. Ermənistanda baş verən hadisələrdən diqqəti tam yayındırmaq üçün AŞPA-nın yaz sessiyası sanki Azərbaycana həsr edilmişdi. Azərbaycana qarşı yönəlmiş bu oyun neçə illərdir ki, AŞPA-da ölkəmizə qarşı olan ikili standartların davamıdır"-deyə, S.Fətəliyeva vurğulayıb.

# Əbədiyaşar LİDER!

Tarixdə elə insanlar var ki, onların əzəmətini heç bir sözlə ifadə etmək mümkün deyil. Öz xalqı üçün, ölkəsi üçün ömrünü fəda edən bu cür tarixi şəxsiyyətlər daim tarixdə sevgi və hörmətlə anılır, xatırlanırlar. Ulu Öndər Heydər Əliyev də belə insanlardandır. Hər il may ayının 10-da xalqımız Ulu Öndərin doğum gününü, sözün əsl mənasında, böyük sevgi və hörmət hissi ilə qeyd edir. Bu tarixi şəxsiyyətlə bir neçə dəfə ünsiyyətdə olmuş bir insan kimi deyə bilərəm ki, Onun nurlu simasında, həm də öz xalqının taleyi üçün böyük məsuliyyət və narahatlıq hissləri öz əksini tapırdı. Bu cür dahi insanlar həmişə öz mənalı həyatlarını xalqlarının gələcəyi üçün fəda edirlər. Ulu Öndər Heydər Əliyev də bu cür dahi insanlardan idi. Biz Heydər Əliyevi Ulu Öndər, Müdrik İnsan, Dahi Şəxsiyyət adlandırırıq. Amma etiraf edək ki, bunlar Onun milli təfəkkürümüzdə əbədilik qazanan statusunun yalnız müəyyən bir hissəsini ifadə edir. Dahi Öndər Heydər Əliyev Azərbaycan milli varlığının ümumi çevrəsinin ən yüksək nöqtəsini təşkil edən zirvədir.

Müdrikliyi, uzaqgörənliyi və təkrarsız fəaliyyəti ilə milli gerçəkliyimizdə əbədi yer almış ən böyük azərbaycanlı Heydər Əliyevin nurlu obrazı həmişə qəlbimizə işıq və hərarət saçır. Adı Azərbaycanın, türk dünyasının, bütövlükdə, dünya siyasətinin tarixinə qızıl hərflərlə yazılmış bu şəxsiyyət, haqlı olaraq, Əbədi Öndərimiz kimi sabaha gedən yolumuzun mayakına çevrilmişdir.

Bənzərsiz tarixi şəxsiyyət kimi, Heydər Əliyev siyasətdə həm ənənəvi, həm də müasir lider obrazında təzahür edən, təmsil etdiyi xalqın və dövlətin yolgöstərəninə çevrilməyi bacaran və onun milli idealını təmsil edən dahi və müdrik bir insandır. Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixində ən ardıcıl və ən böyük istiqlalçı, ən böyük demokrat, ən böyük vətənpərvər, ən böyük dövlətçi və ən böyük əməl sahibidir. Onun fəaliyyətinin hər bir hissəsi xalqımızın mədəni inkişafına, iqtisadi və siyasi yüksəlişinə xidmət edən müvəffəqiyyətlərlə zəngindir.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ömür yolu, həmişə uğur və qələbələrlə müşayiət olunan mübarizəsi iki minilliyi qovuşduran onilliklərdə tariximizin şərəf kitabının ən parlaq və zəngin səhifələrini təşkil edir. Milli tariximizin Ulu Öndər Heydər Əliyev zirvəsi gələcəyə gedən yolumuzu aydın görməyə geniş imkan yaratdığı kimi, keçmişimizi, xüsusən, yaxın dünənimizi də doğru-düzgün dəyərləndirməyimiz üçün dolğun mənzərə açır.

Böyük şəxsiyyətlərin adı zəmanəsinin və xalqının rəmzinə çevrilir. Ulu Öndər, dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının öz tarixi ərzində ərsəyə gətirdiyi ən böyük siyasət və dövlət xadimidir. Xalqımızın bütün müsbət keyfiyyətlərini, yaradıcılıq enerjisini öz simasında üzvi şəkildə birləşdirən Heydər Əliyev millətimizin şərəf və ləyaqət ünvanına çevrilmişdir. Tariximizin son yarım əsrdən artıq bir dövrü Dahi Öndər Heydər Əliyevin zəkası ilə nurlanmışdır.

Ümummilli Lider Heydər Əliyevin bir qərinədən artıq dövrdə Azərbaycana iki dəfə rəhbərlik etməsi ən mühüm nəticələri ilə şəxsiyyətin tarixdə müəyyənedici rolunu bir daha təsdiqləyən, çağdaş dünyada etiraf olunan fenomenal bir hadisədir. Ulu Öndərimizin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrü indiki nəsillər minilliklər boyu davam edən dövlətçilik tariximizin ən şanlı səhifələri, misilsiz idarəetmə məktəbi kimi öyrənir və daim sonsuz qürur mənbəyi kimi yad edirlər. Bu misilsiz siyasi irs-liderlik məramı 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə başlanan şərəfli missiya ilə müəyyən olunmuşdur. Dahi Öndər Heydər Əliyev uzaqgörən, qətiyyətli siyasətçi olduğunu hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə



təsdiqləmişdir.

Böyük strateq bugünkü müstəqil Azərbaycanı hələ o zamandan- Azərbaycanda həyatın bütün sahələrində ağır tənəzzülün hökm sürdüyü bir dövrdə xalqın problemlərini öz çiyninə götürdüyü 1969-cu ildən qurmağa başlamışdır. Bu qənaətin gerçəkliyini tarixi proseslərin sonrakı gedişi də tam sübuta yetirmişdir. Zəngin idarəçilik təcrübəsini sovet rejiminin əsl mahiyyəti barədə bilgiləri ilə uzlaşdıran Ümummilli Lider o zaman Azərbaycanı düşmüş olduğu böhrandan çıxarmaq üçün qəti addımlar ataraq böyük uzaqgörənliklə ölkənin uzunmüddətli, ardıcıl inkişafının təminatına yönələn proqramlar tərtib etmiş və qısa zaman ərzində bu proqramların icrasına nail olmuşdur.

Böyük qurucu lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər siyasi, iqtisadi, mədəni yüksəliş dövrü kimi tariximizə daxil olaraq xalqımızın milli mənlik şüurunun oyanışına güclü təkan vermişdir. Məhz həmin dövrdə imperiya tərkibində olmağımıza baxmayaraq, Azərbaycanın gələcək siyasi və dövlət müstəqilliyi üçün əsaslı zəmin və möhkəm bünövrə yaradılmışdır.

Ulu Öndər Heydər Əliyevin dünyanın ən fövqəl dövlətlərindən olan SSRİ-nin rəhbərliyinə irəli çəkilməsi də Onun lider kimi güclü təşkilatçı olması ilə bağlı idi. Heydər Əliyev məhz zəka və enerjisinin nəhəngliyi sayəsində 1982-ci il noyabrın 23-də Sovet dövlətinin ali qərargahı olan Sov. İKP MK-nın Siyasi bürosuna üzv seçildi. O, Moskvaya aparıldı, ən ağır və məsul vəzifələrdən olan SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. O dövrdə bu qüdrətli siyasət və dövlət xadimi SSRİ-nin ən mühüm sahələrinə rəhbərlik etdi və öz güclü təsir qabiliyyəti ilə o zamankı inkişafa təkan verdi. Moskvada çalışdığı dövrdə də xalqımızın sədaqətli oğlu Heydər Əliyev Azərbaycanın ardıcıl inkişafı üçün əlindən gələni edirdi. Ulu Öndər Heydər Əliyev Siyasi Büro tarixində ilk şəxsiyyət oldu ki, sovet siyasi maşını Onu sındıra, əyə, məhv edə bilmədi. O, Siyasi Bürodan uzaqlaşdırılan yeganə şəxs idi ki, yenidən siyasi olimpə qalxmağı bacardı! Çünki O, artıq çoxdan öz vətənində və dünyada yüz milyonlarla insanın nüfuz və etibarını qazanmışdı.

Siyasət nəhəngi Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişi də eynilə birinci dəfə olduğu kimi, respublikanın üzləşdiyi ağır sosial-iqtisadi, mənəvi mühitlə şərtlənmişdi. Ulu Öndər 1993-cü ilin iyununda kifayət qədər böhranlı bir dövrdə xalqın çağırışına cavab verərək, Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürərək onun sürətli icrasına başlamışdır.

Dövlətçiliyimizin müqəddəratının həll edildiyi 1993-cü ilin iyun günlərində xalqın təkidli tələbi ilə Dahi Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı məhv olmaq fəlakətindən xilas etdi. Heydər Əliyevin sayəsində Azərbaycan uçurumun bir addımlığından geri döndü, itirmək üzrə olduğu siyasi və dövlət müstəqilliyini qoruyub saxlaya bildi. Bir faktı qeyd edim ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1991-ci il oktyabrın 18-də elan olunsa da, onun əsl tarixi, məhz qurtuluş günündən başlanır. Çünki Ulu Öndərimizin dediyi kimi, "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir".

Bu, zəruri və tarixi Qayıdış idi. Bu, xalqın ümidlərinin bərpası idi, onun öz Xilaskarına qovuşması idi! Bu, Azərbaycanın tarix səhnəsindən həmişəlik silinmək təhlükəsindən Qurtuluşu idi! Bu, "ölüm-qalım" dilemmasının xalqın, millətin, dövlətin xeyrinə həll olunması idi! Bu, azadlıq və dövlətçilik rəmzinə çevrilən real və əfsanəvi liderin: "Müstəqilliyimiz dönməzdir, qətidir və əbədidir" fikrinin təsdiqi idi!

Ulu Öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratdı.

Zəngin təcrübəli və yeni təfəkkürlü siyasətçi Ulu Öndər Heydər Əliyevin demokratiya epoxasında müstəqil dövlətimizə rəhbərliyi dövründə Azərbaycanda dövlət quruculuğu, iqtisadi inkişaf, beynəlxalq əlaqələrin gücləndirilməsi istiqamətində davamlı proses başlandı, ölkədə bütün sahələr üzrə köklü islahatlar aparıldı. Müstəqillik yolunda inamla addımlayan Azərbaycan dünyada baş verən demokratikləşmə prosesinin iştirakçısına çevrildi. Bütün bunlarla yanaşı, Ulu Öndər Heydər Əliyev çox böyük məharətlə özünün neft strategiyasını işləyib hazırladı. Ümummilli Lider böyük uzaqgörənliklə dünyanın enerji tələbatının günbəgün artdığını görür, neft diplomatiyası dövrünün başlandığını və bu diplomatiyada ölkəsinin qazanacağı iqtisadi və siyasi dividendləri yaxşı duyurdu. Dünyanın söz sahibi olan ölkələrinin nəhəng neft şirkətləri ilə intensiv danışıqlar başlandı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bunun çox böyük iqtisadi dəyəri ilə yanaşı, siyasi əhəmiyyəti ondan ibarət idi ki, Azərbaycan dünya iqtisadi siyasətinin maraq mərkəzinə çevrildi. Qədim İpək Yolunun bərpası ideyasını qaldırmaq və onun həyata keçirilməsi işini təşkil etmək isə Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin regional yox, dünyəvi xarakter daşıdığını sübut etdi. Böyük İpək Yolu ilə bağlı 30-dan çox dövlətin müasir inkişafında bu yolun müstəsna rolu Ulu Öndərin adı ilə bağlıdır.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. Ölkədə əsaslı siyasi, hüquqi və sosial islahatlara başlanıldı. Milli-mənəvi dəyərlərimizin qorunması, mədəniyyətin, ədəbiyyatın və incəsənətin inkişafı üçün lazımi tədbirlər görüldü. Milli dövlətçilik ideologiyası və idarəçilik fəlsəfəsi formalaşdırıldı.

Azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə milli həmrəyliyin yaradılması istiqamətində əməli addımlar atıldı. Dünyanın müxtəlif qitələrində yaşayan soydaşlarımızla əlaqələrin inkişaf etdirilməsi, diaspor təşkilatlarının yaranmasına kömək göstərilməsi dövlət siyasətinin tərkib hissəsinə çevrildi.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilməsi haqqında müqavilələri bağlamaqla Ulu Öndər Heydər Əliyev təkcə Azərbaycanın yox, Gürcüstan və Türkiyənin də iqtisadi inkişafına zəmin yaratdı, üstəlik, hərbi təhlükəsizliyi təmin etdi. Ümummilli Liderin təxəyyülünün qlobal siyasətə bu uzaqgörən təsiri bütün Qafqaza aid dünya siyasətinin dəyişməsinə səbəb oldu.

Nəticə etibarilə, qeyd edə bilərik ki, böyük dövlətçilik təcrübəsinə malik olan Ümummilli Lider Heydər Əliyev Şərq və Qərbin qovşağında yerləşən ölkəmizdə hər iki sivilizasiyanın konseptual parametrlərini özündə birləşdirən universal, modern bir dövlət yaratdı. Məhz Onun sayəsində Azərbaycan dünyanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərinin strateji tərəfdaşına və Cənubi Qafqazın ən aparıcı dövlətinə çevrildi. Ulu Öndər Heydər Əliyev xoşbəxt siyasətçi və dövlət xadimi idi, çünki zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan dövlətinin gələcəyindən arxayın idi. Heydər Əliyevin ruhu da şaddır, çünki başladığı işlər bu gün Prezident İlham Əliyev tərəfindən eyni əzm və iradə ilə davam etdirilir, Onun yaratdığı möhkəm təməl üzərində inkişaf edən Azərbaycan Respublikası yeni-yeni zirvələr fəth edir. Ulu Öndərin yaratdığı sabitlik və həyat verdiyi islahatlar Azərbaycanın müstəqilliyini dönməz və əbədi prosesə çevirdi, indiki yeniləşmə və tərəqqi üçün mötəbər baza yaratdı. Bu strateji xətti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 ildir ki, uğurla davam etdirir.

Azərbaycanın siyasi, iqtisadi və hərbi qüdrəti artmış, ölkəmiz Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevrilmişdir. Getdikcə daha da artan imkanlarımız qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni uğurla yerinə yetirməyə imkan yaradır. Azərbaycan Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə sıx bağlayan nəhəng iqtisadi layihələrin həyata keçirilməsində həlledici rol oynayır.

Azərbaycanda elmin, mədəniyyətin, incəsənətin inkişafı, mənəvi dəyərlərin qorunması və zənginləşməsi, ölkəmizin dünya miqyasında qədim və zəngin mədəniyyətə malik bir ölkə kimi tanınması üçün Ulu Öndərin gördüyü işləri, elm, mədəniyyət xadimlərinə böyük qayğı ilə yanaşma ənənəsini də bu gün Onun davamçıları Prezident İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva böyük uğurla yaşadırlar.

Ölməzlik, həmişəyaşarlıq dahilərə, böyük şəxsiyyətlərə nəsib olan xoşbəxtlikdir. Xalqımızın böyük oğlu, Ümummilli Liderimiz Heydər Əliyev də, məhz belə xoşbəxt tarixi simalardandır. Heydər Əliyev xalqımızın dünya tarixinə bəxş etdiyi elə qüdrətli dövlət xadimlərindəndir ki, insanlar, yeniləşən nəsillər zaman-zaman Onun ömür yoluna müraciət edəcək, zəngin irsini araşdıracaq, öyrənəcək, liderlik məktəbindən dərs alacaqlar. Ulu Öndər nəsillərin qəlbində öz əməlləri, ölməz ideyaları ilə yaşayacaqdır. Əsrlər, qərinələr keçəcək, Azərbaycan xalqı var olduqca, onun Ümummilli Lideri də daim yaşayacaq, heç vaxt unudulmayacaqdır.

**Şirvan Əbilov,**
**Prezident təqaüdçüsü**

# BSU-nun xarici ölkələrin təhsil ocaqları ilə əməkdaşlığı genişlənir

***Dünən Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva Çexiya Respublikasının Karl Universitetinin professoru İvana Bozdechovanı və Rumıniyanın Aleksandr İohan Kuzi adına Yassi Universitetinin təhsil marketinqi tədbirləri və akademik imic şöbəsinin əməkdaşı Alexandru Griqorası qəbul edib. N.Əliyeva qonaqları salamladıqdan sonra, onların gəlişinin xoş bir dövrə - Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə təsadüf etdiyini bildirib. O, bu günlərdə Azərbaycanın hər yerində möhtəşəm tədbirlərin keçirildiyini, ölkənin hər bir vətəndaşının Ulu Öndərə öz məhəbbətini ifadə etməyə çalışdığını bildirib.***



Daha sonra rektor BSU-nun xarici ölkələrin ali məktəbləri ilə əlaqələrinə toxunub. N.Əliyeva qeyd edib ki, universitet hər il bir neçə xarici ölkənin ali təhsil ocağı ilə müqavilə imzalayır. Həmin müqavilələr tələbə-müəllim mübadiləsini, birgə elmi layihələrin həyata keçirilməsini, elmi məcmuə və kitabların hazırlanmasını və s. nəzərdə tutur. O, Rumıniya və Çexiyanın bir sıra ali məktəbləri ilə də BSU-nun sıx dostluq münasibətlərinə malik olduğunu dilə gətirib.

Aprelin 29-dan Azərbaycanda olduğunu bildirən rumıniyalı qonaq Alexandru Grigoras üç gün ərzində azərbaycanlılar tərəfindən yüksək qonaqpərvərliklə əhatə olunduğunu bildirib. O, BSU-nu beynəlxalq münasibətlərdə çox aktiv olduğunu qeyd edib və ona universitetdə fəaliyyət göstərən mədəniyyət mərkəzlərinin iş prinsipi ilə yaxından tanış olmaq imkanı yaradıldığına görə, rəhbərliyə təşəkkürünü bildirib. Sonda BSU-da Rumıniya Mərkəzinin açılması barədə də öz arzusunu dilə gətirib.

Daha sonra çıxış edən professor İvana Bozdechova səmimi qəbula görə, BSU rəhbərliyinə dərin minnətdarlığını bildirib.

Mayın 6-a qədər BSU-da çex dilini tədris edəcəyini bildirən professor öz ölkəsində də gənclərin Azərbaycan mədəniyyətinə, dilinə, xüsusilə də, klassik ədəbiyyatına maraq göstərdiklərini dilə gətirib.

**ZÜMRÜD**

## Gəncədə Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş şahmat turniri keçirilib



Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş silsilə tədbirlər həyata keçirimməkdə davam edir. Növbəti tədbir YAP Gəncə şəhər təşkilatının gənclər birliyinin təşəbbüsü ilə 2 nömrəli Uşaq-Gənclər İdman Şahmat Məktəbində keçirilən şahmat turniri olub. Olimpiya sisteminə uyğun olaraq keçirilən yarışda Gəncə şəhər ali və orta ixtisas təhsil müəssisələrinin hər birində 6 nəfər olmaqla, 6 komandası qalib adı uğrunda mübarizə aparıb. Turnirin əvvəlində yarış iştirakçıları Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin sədri Yüksəl Məmmədov Ulu Öndərin siyasi kursunun gənc nəslə təbliğ edilməsindən, şahmat turnirinin gənclər arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, asudə vaxtlarının səmərəli təşkinə xidmət etməsindən, gənclərin əqli inkişafında və intellektual səviyyəsinin yüksəlməsindəki əhəmiyyətli rolundan danışıb.

YAP Gəncə şəhər təşkilatının idelogiya şöbəsinin müdiri Hüseyn Budaqov, təşkilat şöbəsinin müdiri İsmayıl İsmayılov, 2 nömrəli Uşaq-Gənclər İdman Şahmat məktəbinin müdiri Asif Həsənov, YAP Gəncə Tibb Kollecinin ərazi ilk partiya təşkilatının sədri Kifayət Fəttahi çıxış edərək Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident Cənab İlham Əliyevin apardığı siyasətin uğurlu nəticəsi kimi xalqın milli-mənəvi, mədəni və elmi-intellektual potensialının gücləndirilməsinin ön planda dayandığına diqqət çəkiblər.

Tədbirdə Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti, Gəncə Musiqi Kolleci, Gəncə Dövlət Regional Kolleci və Gəncə Tibb Kolleci tələbələrinin iştirak etdiyi şahmat turnirinə start verilib.

Final mərhələsində Gəncə Dövlət Regional Kollecinin komandası I yer, Gəncə Dövlət Universitetinin komandası II yer, Azərbaycan Dövlət Aqrar Universitetinin komandası isə III yerə sahib olub.

***Rövşən NURƏDDİNOĞLU***

## Respublika Veteranlar Təşkilatı gənclərin hərbi xidmətə hazırlığı ilə bağlı tədbirlər keçirir



Mayın 2-də Respublika Veteranlar Təşkilatında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimovun İkinci Dünya müharibəsi veteranlarının bir qrupu ilə görüşü olub. AZƏRTAC xəbər verir ki, Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin 73-cü ildönümü ərəfəsində belə görüşlərin əhəmiyyətini yüksək qiymətləndirib. Qeyd edilib ki, Respublika Veteranlar Təşkilatının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə əlaqələrinin xüsusi əhəmiyyəti var. Hələ keçmiş SSRİ dövründə təməli qoyulmuş bu qarşılıqlı fəaliyyət hər iki tərəf üçün mühüm əhəmiyyət kəsb edir. İkinci Dünya müharibəsi iştirakçıları ilə bağlı fəaliyyət, eləcə də gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi, həqiqi hərbi xidmətə hazırlanmaları istiqamətində müvafiq tədbirlərin keçirilməsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti daim Təşkilatın fəaliyyətinə dəstək olub. Bugünkü görüşün keçirilməsi də bunun əyani sübutudur. Alman faşizmi üzərində Qələbənin 73-cü ildönümü münasibətilə veteranları təbrik edən Arzu Rəhimov onlara möhkəm cansağlığı, gənc nəslin azərbaycançılıq, vətənpərvərlik ruhunda tərbiyəsində uğurlar arzulayıb. Respublika Veteranlar Təşkilatının gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmaları, hərbi xidmətə hazırlanmaları istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirən A.Rəhimov bu işin torpaqlarımızın 20 faizinin Ermənistan hərbi birləşmələrinin işğalı altında olduğu vaxtda xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Ölkəmizdə İkinci Dünya müharibəsi veteranlarına Azərbaycan dövləti, xüsusilə Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük diqqət və qayğı göstərildiyini qeyd edən Xidmət rəisi görüşün məqsədinin də məhz bu, olduğunu bildirib. A.Rəhimov İkinci Dünya müharibəsində Azərbaycanın cəbhəyə verdiyi əvəzsiz töhfələrdən və Azərbaycan Ordusunun aprel döyüşlərində göstərdiyi şücaətlərdən danışıb.



General-leytenant Arzu Rəhimov Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynova xüsusi hədiyyə təqdim edib.

# Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz

*Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.*

**Heydər Əliyev**



***Qədim və köklü milli-mənəvi dəyərlər sisteminə malik olan Azərbaycan xalqı bu dəyərləri sədaqətlə qorumuş, əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması, keçmişdə olduğu kimi, bu gün də öz aktuallığını qoruyub-saxlayır. Çünki milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Milli-mənəvi, o cümlədən, dini dəyərlərimizin, adət-ənənələrimizin dərindən öyrənilməsi və araşdırılması müasir cəmiyyətimizin prioritet istiqamətlərindən biridir. Tarixi təcrübə göstərir ki, öz soykökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, tarix səhnəsindən birdəfəlik silinmək təhlükəsi ilə üz-üzə qalmışlar.***

Bəs milli-mənəvi dəyərlər deyəndə, nə başa düşülür? Milli ideologiya, mənəvi yaddaş, milli tarix, milli dil, ənənəvi dini dəyərlər, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə sistemi, dahi şəxsiyyətlərimiz, milli musiqimiz və s. Bir sözlə, milli və mənəvi olan bütün nailiyyət və keyfiyyətlərimiz milli-mənəvi dəyərlər sisteminə aiddir. Müasir Azərbaycan tarixinə nəzər saldıqda, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ulu Öndər Heydər Əliyevi görürük. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ulu Öndər azərbaycançılıq ideologiyasının əsasını qoyaraq, milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş və aşınmadan xilas etmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan Ümummilli Liderimiz Heydər Əliyev bu sahədə inqilabi addımların atılmasına zəmin yaratmışdır. Ulu Öndər milli-mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ulu Öndər deyirdi: "Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".

Xalqımız 70 il sovet rejimində ateist təbliğatın aparıldığı bir şəraitdə yaşasa da, milli-mənəvi dəyərlərimizin ən önəmli komponentlərindən biri olan öz dini-mənəvi dəyərlərini unutmamış, onları gizli də olsa, yaşatmışdır. Lakin bununla belə, o dövrdə dini dəyərlərin sərbəst şəkildə yaşadılması və inkişafı mümkün deyildi. Həmin dövrdə ölkəmizdə cəmi 17 məscid fəaliyyət göstərirdi. Dini ibadətgahlarımızın və abidələrimizin bərpası və yenidən inşası da Ulu Öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Məhz bu dövrdə yüzlərcə ibadətgah inşa və ya bərpa edilmiş, dini dəyərlərimiz yenidən canlanmışdır. Xalqımızın əsrlərcə ziyarət yeri olan, lakin sovet rejimi tərəfindən dağıdılan Bibiheybət məscidi və ziyarətgahının Heydər Əliyevin göstərişi ilə dövlət hesabına yenidən inşa edilməsi onun bu sahədəki xidmətlərinin bir göstəricisidir. Belə misalların sayı olduqca çoxdur. Heydər Əliyev islam dinini bizim milli-mənəvi kimliyimizin ayrılmaz tərkib hissəsi kimi qəbul edirdi. "Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu islam dini özünün mütərəqqi olduğunu və eyni zamanda, islam dininə itaət edən insanlara özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanları həyatlarında rast gəldikləri çətinliklərdən xilas etməyə, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz məsləkini qoruyub-saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, islam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün islam dininə itaət edən adamların hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır" sözləri Onun dinə baxışını çox aydın şəkildə xülasə edir. Ulu Öndər dinimizin əxlaqi dəyərlər sistemi kimi mənimsənilməsinin gənclərin formalaşmasında müsbət bir funksiya icra edəcəyini düşünürdü.

Ulu Öndər Heydər Əliyev, eyni zamanda, Azərbaycan multikulturalizminin də əsasını qoymuşdur. Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Ümummilli Lider ölkədə mövcud olan xaos və özbaşınalığa son qoymuş və ölkəmizi vətəndaş qarşıdurması kimi böyük bəlalardan xilas etmişdir. Belə bir dövrdə Azərbaycanda yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin ortaq dəyərlər ətrafında birləşməsinə ehtiyac var idi. Ulu Öndər azərbaycançılıq məfkurəsinin prinsiplərini bəyan etməklə ölkəmizin inkişafı və tərəqqisi üçün

# Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz

işıqlı yolun təməlini qoymuşdur. Heydər Əliyev öz çıxışlarının birində deyirdi: "Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir. Azərbaycanda heç vaxt dini zəmində heç bir münaqişə, heç bir toqquşma olmamışdır. Hətta ötən əsrin 80-ci illərinin axırı və 90-cı illərinin əvvəllərindəki ağır dövrdə belə heç bir mənfi fakt qeydə alınmamışdır. Bu gün də müstəqil Azərbaycanda biz hər bir insanın azadlığı üçün, o cümlədən, dini mənsubiyyət azadlığı, vicdan azadlığı üçün hər cür şərait yaratmışıq. Hər kəs hansı dinə mənsubdursa, həmin dinə etiqad edir. Lakin bu, Azərbaycanda insanların mehriban, qarşılıqlı anlaşma şəraitində yaşamasına mane olmur, burada milli və dini mənsubiyyətlə əlaqədar heç bir ayrı-seçkilik yoxdur". Məhz bu fikirlər dahi şəxsiyyətin uzaqgörən siyasətini ifadə etməyə kifayət edir. Ulu Öndər azərbaycançılıq ideologiyası ilə dilindən, dinindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət etdi. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissini yaşaması isə tolerantlığın bariz təzahürünə çevrildi.

Təbii ki, Ulu Öndərin milli-mənəvi sahədə həyata keçirdiyi mütərəqqi islahatlar bununla məhdudlaşmır. Milli-mənəvi, xüsusilə, dini dəyərlər sisteminin sağlam müstəvidə inkişaf etdirilməsi və qorunması üçün güclü siyasi iradə, habelə, dövlətçilik təcrübəsi tələb olunurdu. Heydər Əliyev bu xüsusiyyətləri özündə ehtiva edən tarixi şəxsiyyət kimi bu işin öhdəsindən də məharətlə gəldi. Dini təhlükəsizliyin təmin edilməsi üçün hüquqi-inzibati sferada lazımi addımlar atılmaqla yanaşı, məzhəbçilik, dini-nifrət və ayrı-seçkiliyin ölkəmizə ayaq açmasının da qarşısı qətiyyətlə alındı. O dövrdə Azərbaycanın düşdüyü çətin vəziyyətdən çıxmasını istəməyən daxili və xarici qüvvələr Heydər Əliyevə hər vəchlə mane olmağa çalışsalar da, xalqın Ulu Öndərə verdiyi böyük dəstək nəticəsində bu çirkin təxribatların sonu uğursuzluqla bitdi. Azərbaycanın ən böyük ziyalısı Ulu Öndər Heydər Əliyev çox çətin bir vaxtda məsuliyyəti öz üzərinə götürüb xalqımızın dəyərlər sistemini məhv olma təhlükəsindən xilas etdi.

Ulu Öndərin, bilavasitə rəhbərliyi ilə həmin dövrdə ictimai və milli təhlükəsizliyə yönəlmiş son dərəcə təhlükəli təhdidlərdən biri kimi dini ekstremizm və radikalizmə qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətə çevrildi. "Totalitar rejimlərin və ideologiyaların süquta uğradığı indiki dövrdə dinlərin cəmiyyətin həyatında oynadığı rol dinamik şəkildə dəyişir. Pozitiv proseslərlə yanaşı, bəzi qüvvələrin dinlərdən terrorizmə və ekstremizmə təhrik vasitəsi kimi istifadə etmək halları da artır. Bax, belə halların baş verməsinin qarşısının qətiyyətlə alınması üçün cəmiyyətin bütün təbəqələrinin, xüsusilə siyasətçilərin, alimlərin, dindarların və din xadimlərinin səfərbər edilməsi zəruridir" deyən Ümummilli Lider bu səfərbərliyi uğurla həyata keçirərək dini təhlükəsizliyi təmin etməyi bacardı.

Azərbaycan günümüzdə müasir, dünya birliyinə sürətlə inteqrasiya edən bir ölkədir. Təbii ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesi bizim ölkədən də yan keçməyib. Buna baxmayaraq, biz qloballaşma adı altında öz milli-mənəvi dəyərlərimizi unutmamalı, bu dəyərlərə sadiq olmalı, gənc nəsli vətənpərvərlik ruhunda yetişdirməliyik. Hər bir ölkə və xalq üçün onun milli-mənəvi dəyərləri hər şeydən üstün tutulmalı, bu dəyərlər hər zaman müdafiə edilməlidir. Qloballaşma heç də digər xalqlara məxsus dövlət-din modellərinin, adət-ənənələrinin, milli mentalitetimizə xas olmayan dəyərlərinin ölkəmizə idxalı deyildir. Biz qloballaşma deyəndə, Azərbaycanda beynəlxalq əməkdaşlığı və səmimi dostluğu nəzərdə tutmaqla yanaşı, milli dövlətçiliyimizə, mənəvi dəyərlərimizə, Ulu Öndərin bizə əmanət etdiyi azərbaycançılıq məfkurəsinə sahib çıxmağı, milli mənliyimizi qorumağı nəzərdə tuturuq. Bu gün Heydər Əliyevin yaratdığı müasir Azərbaycan Ümummilli Liderimizin siyasi kursunun layiqli davamçısı Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Ölkəmiz iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə böyük uğurlara imza atır. Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, idman yarışlarına, forumlara ev sahibliyi edir. Bütün regional layihələrin təşəbbüskarı və ya iştirakçısı olan Azərbaycan hər bir vətəndaşımızın, gerçək mənada, fəxrinə çevrilibdir. Bu uğurlu siyasət mənəvi sahəni də əhatə edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə inşa edilmiş Qafqazın ən möhtəşəm məscidi olan Heydər Məscidi dindarların istifadəsinə verilmişdir. Bununla yanaşı, Təzə Pir məscidi, Hacı Əjdərbəy məscidi, Şamaxı Cümə məscidi dövlət hesabına təmir-bərpa edilmişdir. Milli-mənəvi dəyərlərimizin yaşadılmasında, onun təbliğində genişmiqyaslı fəaliyyəti ilə ictimaiyyətimizin rəğbətini qazanan Heydər Əliyev Fondu da böyük uğurlara imza atmışdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tarixi-dini, mədəni abidələrin qorunmasını və bərpasını daim diqqət mərkəzində saxlayır. Onu da qeyd edək ki, mənəvi dəyərlərimizin, tolerantlıq ənənələrinin təbliğində, irsimizin tanıdılmasında, həmçinin, dünyanın müxtəlif guşələrində əyani şəkildə nümayişində Heydər Əliyev Fondunun məxsusi xidmətləri vardır. Fondun maliyyə dəstəyi ilə Bakıdakı Pravoslav və Müqəddəs Məryəm kilsələrində də təmir-bərpa işləri aparılmış, yəhudi uşaqları üçün təhsil və mədəniyyət mərkəzinin tikintisinə dəstək verilmişdir. Göründüyü kimi, Heydər Əliyev Fondu təkcə islam dininə aid tarixi-dini abidələrin bərpasına deyil, həmçinin, Azərbaycandan kənarda olan digər dinlərə məxsus abidələrin də bərpasına qayğı ilə yanaşır ki, bu da xalqımızın tolerantlığının və sülhpərvərliyinin əyani sübutudur.

Hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına və tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı, məhz milli-mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu bugünədək qoruyub-saxlaya bilmişdir. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli, mənəvi, mədəni, maddi, ədəbi və dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılmış və onun böyük hissəsi bugünədək qorunub- saxlanılmışdır. Milli dövlətin formalaşmasında, güclü və əbədiyaşar olmasında onun mənəvi əsaslarının milli dəyərlərlə səsləşməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, Ulu Öndər Heydər Əliyev məktəbinin gənc nəslə aşılanması ən vacib məsələlərdən biridir.

***Səyavuş Heydərov,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini***

## Sergey Melniçuk: "Azərbaycanın uğurlu inkişaf yolunun əsasında Heydər Əliyevin uzaqgörən siyasəti durur"

***Azərbaycanın uğurlu inkişaf yolunun əsasında Heydər Əliyevin uzaqgörən siyasəti durur. Bu fikri AZƏRTAC-a açıqlamasında Ukrayna Ali Radasının deputatı Sergey Melniçuk deyib.***



Deputat bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin böyük təcrübəsi və siyasi iradəsi nəticəsində bu gün güclü, müstəqil Azərbaycan dövləti var. O, həmçinin vurğulayıb ki, Azərbaycan və Ukrayna arasındakı dostluğun mövcudluğunun bazasında Heydər Əliyevin vaxtilə gördüyü işlər durur.

"Təsadüfi deyil ki, Ukraynanın bir çox ictimai, siyasi xadimləri Heydər Əliyevi Azərbaycan-Ukrayna dostluğunun memarı və qurucusu kimi qiymətləndirirlər. Vaxtilə Heydər Əliyev Azərbaycan ilə Ukrayna arasında iqtisadi, ticarət, mədəniyyət, elm, təhsil və humanitar sahələrdə normativ hüquqi bazanın yaradılması və əlaqələrin tənzimlənməsini möhkəm əsaslar üzərində qurub", - deyə Sergey Melniçuk əlavə edib.

## İsrailin tanınmış şairi Mətbuat Şurasında olub

Dünən İsraildən olan tanınmış şair Pyotr Davıdov Azərbaycan Mətbuat Şurasında olub. SİA-nın məlumatına görə, qonağı salamlayan Şura sədri, Milli Məclisin deputatı Əflatun Amaşov ona rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətlərindən söz açıb. Qarşılıqlı müzakirələr şəraitində keçən görüşdə İsrail və Azərbaycan mediası arasındakı oxşar və fərqli cəhətlərə toxunulub. Ə.Amaşov bildirib ki, hər iki ölkə bütün sahələrdə sıx əlaqələrə malikdir. Media hər zaman buna önəm verir. Şura sədri, həmçinin, vurğulayıb ki, Azərbaycan mediasının İsrailin qabaqcıl təcrübəsini öyrənməsi mühüm əhəmiyyətə malikdir. P.Davıdov Azərbaycan və İsrailin mədəni əlaqələr müstəvisindəki dinamik əməkdaşlıq xəttindən söz açıb, mövcud istiqamətdəki xarakterik cəhətlərə toxunub.




Qeyd edək ki, İsrailin tanınmış şairlərindən olan P.Davıdov Bakıda anadan olub. Neft Akademiyasında təhsil alıb. P.Davıdovun şeirlər kitabı dünyanın 6 dilinə tərcümə edilib. Şairin yaradıcılıq nümunələrini internet üzərindən 20 milyondan artıq adam izləyib. Azərbaycanda yaşadığı dövrdə çalışdığı media orqanı Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTAC) olub. İsrailli qonaq informasiya agentliyində çalışdığı illərlə bağlı xatirələrini bölüşüb. Ə.Amaşov P.Davıdovu Mətbuat Şurasının fəxri diplomu ilə təltif edib. Bakıda olduğu müddətdə onun tələbələrlə, şair və yazıçılarla, media təmsilçiləri ilə görüşlər keçirməsi nəzərdə tutulur.

# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib



***Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib. Şuradan SİA-ya verilən məlumata görə, iclasda ilk olaraq Gədəbəy rayon sakini Məzahət Mahmudovun özünü jurnalist kimi qələmə verən Gədəbəy rayon sakini Fəqani Hüseynova qarşı şikayəti araşdırılıb.***

Komissiya üzvləri bildiriblər ki, şikayət buna səbəb olan materialın cavabdeh media orqanında dərc edilməsi, yaxud yayımlanması prinsipi ilə "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"na (AJPDQ) əsasən dəyərləndirilir. F.Hüseynovun dərc edilmiş və ya yayımlanmış yazısı olmadığından Şikayətlər Komissiyası dəyərləndirmə aparmır. Mövcud istiqamətdə şikayətçi tərəfə konkret tövsiyələr verilib.

Komissiya üzvləri Bakı şəhəri Firuz Bayramov adına 22 nömrəli tam orta məktəbin direktoru Azər Ələkbərovun bir qrup xəbər portalına qarşı müraciətini nəzərdən keçirərək belə rəyə gəliblər ki, materialları şikayət doğurmuş kütləvi informasiya vasitələri 22 nömrəli məktəbdə şagirdin zorakılığa məruz qalması xüsusunda xəbər hazırlayarkən, AJPDQ-nın prinsiplərini pozmayıblar. Onlar şagirdin valideyninin verdiyi xəbərlə yanaşı, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və hüquq-mühafizə orqanlarının da mövqeyini öyrəniblər. KİV balans prinsipini qorumaqla xəbərin yanlışlığına aydınlıq gətiriblər. Cavabdeh media orqanlarının iclasda iştirak edən təmsilçiləri təhsilin inkişafına dəstək vermək naminə 22 nömrəli məktəb adına yayılmış yanlış informasiyanın nəticələrinin aradan qaldırılmasına dəstək verəcəklərini də bildiriblər.

Bakı şəhərinin Suraxanı rayonunun Bülbülə qəsəbəsinin sakini Nağı Allahverdiyevin Baku Press Milli İnformasiya Agentliyinin təsisçisi Şəfəq Ağabalayevaya qarşı şikayətinə baxan komissiya üzvləri şikayətçi tərəfin yetərli dəlillər təqdim etməməsini, Komissiyanın müzakirəsinə qatılmayaraq mövqeyini əsaslandırmamasını nəzərə alaraq şikayəti geri qaytarıblar.

Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin "Nyus.az"saytı ilə bağlı müraciətinin araşdırılması tərəflər arasında qarşılıqlı anlaşmanın əldə olunması ilə yekunlaşıb.

## Aydın Quliyev: "Türkiyə-Azərbaycan formatının tarixində iki mərhələ var"



"Dünyada ikitərəfli dövlətlərarası əməkdaşlıq formatları çox olub və indi də var. Ancaq Azərbaycan-Türkiyə birliyi qədər məzmunlu, geniş regional və qitələrarası nəticələr doğuran tandemlər azdır. Bu tandem Şərq və Qərb istiqamətində uzantılarına, sağa və sola şaxələnmə imkanlarına görə rəqib tanımır. Az sayda belə ikitərəfli formatlar var ki, dövlətlərdən birinin və ya ikisinin də imkanları ilə bu qədər geniş siyasi coğrafiyaya çıxmaq mümkün olsun". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Baş redaktorun sözlərinə görə, Azərbaycan Türkiyə vasitəsi ilə Avropaya, hətta Şimali Afrika ölkələrinə, Türkiyə isə Azərbaycan vasityəsi ilə mərkəzi Asiyadan keçməklə hətta uzaq Çinə, Vyetnama ən qısa çıxış əldə edə bilər: "Bu format 25 illik dinamik və fasiləsiz fəaliyyəti ilə də diqqəti çəkir. Türkiyə-Azərbaycan formatının tarixində aydın seçilən iki mərhələ var. Heydər Əliyevlə Süleyman Dəmrəlin təməl və davam prinsipləri ilə əsasını qoyduqları ilkin mərhələ öz zamanında çox sınaqlardan çıxdı, çətinliklərdən keçdi. Prezident İlham Əliyevlə Ərdoğan isə məzmunca daha dolğun ikinci mərhələni başlatdılar. Azərbaycan lideri İpək Yolunun bərpası üstündə Azərbaycan-Türkiyə birliyinin əvəz olunmaz həlqə olmasını sübut etmək üçün böyük işlər gördü, bu birlik olmasaydı qədim İpək Yolunun bərpası, Şərq-Qərb marşurutu baş tuta bilməzdi.

İlham Əliyev-Ərdoğan mərhələsi olmasaydı, Azərbaycan-Türkiyə formatı Şərqə və Qərbə, sağa və sola doğru bu qədər genişlənmək potensialı qazana bilməzdi. Türkiyə-Azərbaycan-İran, Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli, Azərbaycan-Rusiya-İran-Türkiyə dördtərəfli əməkdaşlıq formatlarının bütün gələcəyinin əsasında, məhz Azərbaycan-Türkiyə tandemi dayanır. Bu mənada, Prezident İlham Əliyevin Türkiyə-Azərbaycan birliyinə müstəsna önəm təkcə ənənəni yaşatmaq taktikası yox, həm də böyük gələcəyin qapılmaz çağrışlarına tam dərk olunmuş perspektivli cavab reaksiyasıdır".

# "Siyasətin dili söyüş dili olmamalıdır"

## *Fazil Mustafa: "Azərbaycanı hədəf seçənlər əvvəl-axır etdiklərinin peşmançılığını çəkəcəklər"*



*Müsahibimiz Böyük Quruluş Partiyasının sədri, millət vəkili Fazil Mustafadır*

***- Fazil bəy, AŞPA-nın qərəzli hesabatından sonra bəzi yerli və xarici qüvvələr də dövlətimizə qarşı qarayaxma kampaniyasını genişləndiriblər. Demək olarmı ki, bu cür anti-təbliğat kampaniyası eyni mərkəzdən idarə olunur?***

- Əlbəttə, Azərbaycana qarşı kampaniyanın aparılmasında mərkəzlər birgə hərəkət edirlər. Ayrıca fərdi insanların müəyyən addımları da istisna deyil. Hər halda, bu, xoşagələn hal deyil. AŞPA-da elə bilirlər ki, Azərbaycan cəmiyyətində yaxşı qarşılanmayan hesabatlar yaymaqla hansısa demokratik proseslərə təkan vermiş olacaqlar. Halbuki bu, Azərbaycana bir təzyiq vasitəsi kimi düşünülən mexanizmdir. Əgər AŞPA, doğrudan da, narahatdırsa, elə Dağlıq Qarabağ məsələsindən daha çox narahat olmalıdır ki, orada minlərlə insanın taleyi ortada qalıb. Bu baxımdan da, bu qüvvələrin Azərbaycana qarşı yaydıqları hesabatların böyük əksəriyyəti planlı şəkildə həyata keçirilir. Əsas da, sabah Azərbaycan özünün dövlət maraqlarına uyğun hansısa məsələni gündəmə gətirsə, dərhal bəyan edəcəklər ki, aha, burda korrupsiya məsələsi var, burada başqa amillər var. Ona görə də, məncə, bu kimi məsələlərdə biz daha diqqətli olmalıyıq və bu qüvvələrə qarşı, ən azı, maarifçilik işini də unutmamalıyıq. Təkcə bunların qınanması ilə iş bitmir. Müəyyən dərəcədə onların davranışlarına qarşıda müəyyən aydınlaşdırıcı işlər də görülməlidir.

***- Sizcə, maarifləndirici çıxışlarla xaricdəki "söyüş qrupu" hesab edilən, mühacirləri Azərbaycanın dövlət və milli maraqları çərçivəsində çıxış etməyə sövq etmək mümkündür?***

- Əlbəttə ki, mümkünsüz heç nə yoxdur. Sadəcə, problemlərin müəyyən dərəcədə aydınladılmasına ehtiyac var. Avropada elə təsəvvür var ki, hansısa bir addımı atırsa, bu, Azərbaycanda demokratiyaya kömək edəcəkdir. Əslində isə, bu addımlar Azərbaycandan nə isə qoparmaq, iqtisadi maraqlarını təmin etmək məsələsinə söykənir. Bunları da biz görmüşük. Onlar Liviyada, Suriyada və ya İraqda demokratiya qurdularmı? Demokratiya adı ilə girdilər ölkələrə, ancaq heç nə də qurmadılar. Eyni şeyi Azərbaycanda həyata keçirmək istəyirlər. Bu qüvvələrin əsas niyyəti budursa, biz bu məsələdə bir az ayıq-sayıq olmağa borcluyuq.

***- Son vaxtlar ortaya çıxan Vidadi İsgəndərli, Leyla Yunus, Orduxan Temirxan və digərləri Azərbaycana qarşı söyüş, ittiham və təhqir elementlərindən istifadə edirlər. Sizcə, bu şəxslər niyə Azərbaycan dövlətinə qarşı bu dərəcədə qisasçılıq mövqeyi sərgiləyirlər?***

- İnsanların psixoloji durumu ilə bağlı bir şey söyləməkdə çətinlik çəkirəm. Yəni bu, ola bilər ki, müəyyən narazılıqlarla və ya hansısa bir motivlə bağlıdır. Amma bütövlükdə, yanaşmam budur ki, bütün hallarda tənqidi mətnlərlə cəmiyyətə verə biləcəkləri faydanı heç vaxt söyüşlə verə bilməzlər. Bütün hallarda söyüşü proseslərin içindən çıxartmaq lazımdır. Çünki ölkəmiz üçün də müəyyən dərəcədə pis bir ənənə yaradır. Yəni siyasətin dili söyüş dili olmamalıdır. Siyasətin tənqid dili var, amma bu dilin faydasını bəşəriyyət daha çox yaşayır, görür və qəbul edibdir. Bu baxımdan da, bu cür addımlar qınanılası addımlardır yolverilməzdir.

***- Ermənistanda baş verən məlum hadisələrdən müxalifət, eləcə də xarici qüvvələr bir növ ruhlanıblar. Niyə Ermənistan hadisələrindən bu dərəcədə nümunə götürmək yolu seçirlər?***

- Niyəsini bu ruhlananların, bir müddət sonra hakimiyyətə gələ biləcəyi təqdirdə, Paşinyanın yeridəcəyi aqressiv siyasətinin nəticələri ilə tanış olandan sonra dərk edəcəklər. Çünki orda baş verənləri demokratik proses kimi göstərmək kobud yanlışlıqdır. Levon Ter-Petrosyan hakimiyyətə gəlməzdən qabaq onun da fəaliyyətini demokratik bir fəaliyyət kimi təqdim etməyə çalışırdılar. Amma sonunda Qarabağın işğalçısına çevrildi. Əsasən, Azərbaycan torpaqlarının bütün işğal məsələləri onun dövründə baş verdi. Bu, nə deməkdir? Bu, o, deməkdir ki, belə məsələlərdə hələ sevinməyə tələsməsinlər. Erməni vasitəsi ilə yenidən Azərbaycan üçün problem yaratmaq istəyən qüvvələrin kimliyinə baxmaq lazımdır. Bu qüvvələr Petorosyan dövründən daha kəskin bir yol izləməyə hazırdırlar. Bu, diqqətdən qaçırılmamalıdır.

***- Bu, o anlamı yaratmır ki, məkrli hesab olunan qüvvələr şeytanla da əməkdaşlığa gedərlər, təki Azərbaycan hakimiyyətindən, dövlətindən qisas alsınlar?***

- Hər halda, bu məsələdə insanlar ehtiyatlı davranmalıdırlar. Özlərinin kinini, narazılığını, hansısa bir əsəbini dövlətin mahiyyətini zədələməyə yönəltməməlidirlər. Bunu edirlərsə, bu, təəssüf doğurur. Azərbaycanı hədəf seçənlər əvvəl-axır etdiklərinin peşmançılığını çəkəcəklər. Çünki öz dövlətini gözdən salmağa hesablanan iddialı çıxışlar etmək, təhqirlər və söyüşlər səsləndirmək yolverilməzdir.

**GÜLYANƏ**

# "Ulu Öndər Heydər Əliyevin ömür yolu Azərbaycan tarixinin şərəfli bir hissəsidir"

## *YAP Samux rayon təşkilatı bu mövzuda tədbir keçirib*



Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatında Ümimmilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibəti ilə "Ulu Öndər Heydər Əliyevin ömür yolu Azərbaycan tarixinin şərəfli bir hissəsidir" mövzusunda gənclərin iştirakı ilə elmi-praktik konfrans keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov qeyd edib ki, Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. "Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli qüvvə kimi formalaşmasında Ulu Öndərin böyük əvəzedilməz xidmətləri olub"-deyə qeyd edən G.Bayramov bildirib ki, müasir Azərbaycan gəncliyi Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu uzaqgörən və məqsədyönlü gənclər strategiyasına sadiqdir.



Tədbirdə YAP Samux rayon təşkilatının gənclər birliyinin üzvləri Qurban Həsənov, Xədicə Qasımova, Emin Şəmmədov, Ülviyyə Salmanova, Raminə Həsənova, Jalə Salmanova və Tərifə Verdiyeva çıxış edərək vurğulayıblar ki, Azərbaycan gənclər ölkəsidir. "Əhalinin 66%-i gənclərdir"-deyə qeyd edən çıxışçılar bildiriblər ki, elmi-texniki tərəqqinin sürətlə inkişafında gənclər öz izlərini qoyur: "Azərbaycan gəncləri ölkəmizdə gedən mədəniyyət, incəsənət, elm və təhsil sahələrində böyük uğurla irəliləyərək, zəngin milli-mədəni irsimizin qorunub-saxlanılmasında, inkişaf etdirilməsində özünü göstərir. Gəncləri təhsil almağa, oxumağa çağıran Heydər Əliyev öyrədirdi ki, dünyada mövcud olan bütün elmlərə yiyələnmək mümkün deyil, lakin vətənini sevən gənc mütləq iki elmi mükəmməl öyrənməlidir".

Tədbirin sonunda YAP Samux rayon təşkilatının şura üzvləri Rəşad Qarayev və Rahil Həsənov çıxış edərək bildirdilər ki, düşmənə qarşı barışmaz olmaq üçün Vətəni candan sevmək lazımdır. İndiki gəncliyin qarşısında əsas vəzifə - müstəqilliyimizi qorumaq, ərazi bütövlüyümüzü qorumaq və bərpa etməkdir. Ulu Öndər Heydər Əliyev ideyalarının layiqli davamçısı Ölkə Prezidenti İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət Azərbaycanın aydın səhərlərindən xəbər verir. Bütövlüyü pozulmuş torpaqlarımızı yenidən qaytarmaq üçün Heydər Əliyev ideyaları ilə möhkəm silahlanmalıyıq.

**Afət TAHİRQIZI**



# Suraxanıda insanlar tibbi müayinəyə böyük həvəs göstərirlər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, ölkənin hər yerində olduğu kimi, Suraxanı rayonunda da əhalinin ümumi profilaktik müayinələrə cəlb olunması işi mütəşəkkilliklə davam edir. Aksiya rayon ərazisində fəaliyyət göstərən 4 xəstəxana, 4 poliklinika və 1 ambulatoriyada həyata keçirilir.

Bu günə qədər rayon üzrə 139 min 200 nəfər və 121 təşkilatın kollektivi tibbi müayinədən keçib. Onlardan 3077 nəfərində müxtəlif xəstəliklər aşkarlanıb, 101 nəfər stasionar müalicəyə cəlb edilib, 236 nəfər təkrar müayinə və müalicə olunmaq üçün paytaxtın müxtəlif xəstəxanalarına göndərilib. Rayonda tibbi müayinənin aparıldığı səhiyyə ocaqlarından biri də 24 saylı Şəhər Poliklinikasıdır. Poliklinikanın baş həkimi Hacağa Bağırov bildirib ki, poliklinika müayinələrin aparılması üçün tam hazır vəziyyətə gətirilib. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, vətəndaşların pulsuz tibbi müayinədən keçirilməsi əhalinin sağlamlığının qorunmasına və xəstəliklərin vaxtında aşkarlanmasına xidmət edir. O, qeyd edib ki, poliklinika 19150 nəfər böyük əhali qrupuna və 6138 uşağa xidmət edir. Tibbi müayinədən keçmək üçün gələn əhali ümumi və biokimyəvi, rentgen, kardioqram, ultrasəs və digər müayinələrdən keçir. 1 may 2018-ci il tarixinədək 17511 nəfər böyük əhali tibbi müayinədən keçib. Müayinədən keçən əhalinin 329 nəfərində müxtəlif xəstəliklər aşkar olunub və 14 nəfər Bakı şəhərinin digər xəstəxanalarına müayinə üçün göndərilib. Xəstəlik aşkar edilən vətəndaşların müalicəsi istiqamətində işlər görülür. Bülbülə qəsəbə sakinləri Gülü Məmmədova, Malik Həsənov yaradılan şəraitdən razılıqlarını bildiriblər. Qeyd olunub ki, bu aksiya bir daha göstərir ki, dövlət başçısı hər bir Azərbaycan vətəndaşını sağlam və gümrah görmək istəyir.

**ZÜMRÜD**

# "Nar"-ın dəstək olduğu informatika üzrə Ümumrespublika olimpiadası başladı

***"Nar"-ın dəstəyi, Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirliyi, Təhsil nazirliyi, Heydər Əliyev fondu və Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə "Ali məktəb tələbələri arasında informatika üzrə Ümumrespublika olimpiadası" 29 aprel 2018-ci il tarixdə Bakı Mühəndislik Universitetində start götürdü.***

Qeyd edək ki, artıq 12-ci dəfə keçirilən olimpiada 17 may - Dünya telekommunikasiya və informasiya cəmiyyəti gününə həsr edilib. Olimpiadanın məqsədi ali məktəb tələbələrinin informatika, proqramlaşdırma sahəsindəki biliklərinin və bu sahəyə olan maraqlarının artırılması, habelə sahə üzrə seçilən tələbələrin beynəlxalq olimpiadalara cəlb edilməsidir. Bu il respublika üzrə 25 ali təhsil müəssisəsindən 62 komanda qeydiyyatdan keçərək olimpiadada iştirak hüququ qazanıb. Paytaxt ilə yanaşı, bölgələrdə fəaliyyət göstərən ali təhsil müəssisələri - Gəncə, Mingəçevir, Naxçıvan, Sumqayıt və Lənkəran dövlət universitetlərinin, Azərbaycan Texnologiya Universitetinin, eləcə də Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri bu il olimpiadaya xüsusi maraq göstəriblər.




Qaydalara əsasən, hər bir təhsil müəssisəsi üzrə ən yaxşı nəticə göstərən yalnız bir komanda olimpiadanın final mərhələsinə vəsiqə qazanır. Finalda isə ən yaxşı nəticə göstərən 4 komanda qalib elan ediləcək. Qaliblər "Nar" və "BestComp Group" şirkətinin təqdim etdiyi qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar. Olimpiadanın final mərhələsi 5 may 2018-ci tarixdə Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunda keçiriləcək. Təhsil, elm və mədəniyyətin inkişafı "Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyasının başlıca prioritetlərindəndir. Mobil operatorun KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək mümkündür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Yerevan metrosunun işçiləri tətil elan ediblər



Karen Demirçyan adına Yerevan Metropolitenin əməkdaşları tətil elan ediblər. SİA Ermənistan KİV-inə istinadən xəbər verir ki, onlar müxalifətin etiraz aksiyasına qoşulublar. Məlumata görə, mayın 2-dən metronun 10 stansiyası bağlanıb. Metropolitenin məsul şəxsləri vəziyyətlə bağlı açıqlama verməkdən imtina ediblər.

# “Heydər Əliyev və Azərbaycan gəncliyi”

*YAP Tərtər rayon təşkilatında bu mövzuda tədbir keçirilib*

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar, tədbirlər planına uyğun olaraq, Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatı gənclər birliyinin təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dönəmlərdə Azərbaycan gəncliyinin firavan həyatı, təhsili, sağlamlığı, vətənpərvər ruhda böyümələri






üçün daim qayğı göstərməsindən danışaraq, bu gün ölkəmizdə Möhtərəm Prezident İlham Əliyevin Ulu Öndərin gənclər siyasətini davamlı olaraq həyata keçirdiyini vurğulayıb.

YAP rayon təşkilatı gənclər birliyinin sədri, rayon gənclər və idman idarəsinin rəisi Emin Pənahov “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusuna həsr olunmuş məruzə ilə çıxış edib. Məruzədə qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin istər birinci, istərsə də ikinci hakimiyyəti dönəmlərində həmişə gənclərin problemləri və onların həlli Onun işinin əsas qayələrindən biri olmuşdur: “Hələ sovetlər dövründə gənclərin respublikadan kənar təhsili məsələləri daim diqqət mərkəzində saxlanılmış, Azərbaycanın gələcəyinə yönələn tədbirlərdən biri də ölkədə hərbi kadrların yetişdirilməsini təmin edəcək Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması olmuşdur”. E.Pənahov bildirib ki, Ulu Öndər Heydər Əliyev müstəqillik dövründə də Azərbaycanın gələcəyinin gənclərə məxsus olduğunu vurğulayırdı.

Tədbirdə Bəyimsarov kənd ümumi orta məktəbinin müəllimi Gülnar Allahverdiyeva, mərkəzi rayon xəstəxanası, təcili yardım şöbəsinin feldşeri Fuad Xanlarov, rayon mərkəzi xəstəxanasının tibb bacısı Çinarə Əzizbəyli, Qazyan kənd ümumi orta məktəbinin müəllimi İlahə Kərimli və Heydər Əliyev Mərkəzinin işçisi İradə Əkbərli çıxış edərək, gənclərimizin Ulu Öndər Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirmələrindən, onların bu gün Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin xoş gələcəyə doğru addımlamasında ön cərgədə olmaqdan qürur hissi duyduqlarını qeyd ediblər.

**Rövşən RƏSULOV**



# Oğuzda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar şahmat birinciliyi keçirilib

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar YAP Oğuz rayon təşkilatı tədbirlər planı hazırlayıb. Buna uyğun olaraq, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Oğuz rayon Uşaq-Gənclər İdman Şahmat məktəbində rayonun şahmat fənni tədris olunan pilot məktəblərində oxuyan II-IV sinif şagirdləri arasında şahmat birinciliyi keçirilib. Turnirdə 8 pilot məktəbindən 43 məktəbli iştirak edib. Turniri Oğuz rayon UGİŞM-in direktoru Nizami Hüseyni açaraq, yarışın əhəmiyyətindən, məktəbin idmançılarının respublika və zona yarışlarında əldə etdiyi uğurlardan danışıb. Tədbirdə Oğuz rayon icra hakimiyyəti başçısının müavini Yusif Naxçıvanski, Yeni Azərbaycan Partiyası Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov, Oğuz rayon Təhsil Şöbəsinin müdiri Elçin Kərimov, Oğuz rayon Gənclər və İdman İdarəsinin rəisi Ramiz Mahmudov çıxış edərək, gənc şahmatçılara uğurlar arzulayıblar. Gərgin şəraitdə keçən şahmat birinciliyi uğrunda mübarizədə İ.Rəhimov adına Qumlaq kənd tam orta məktəbin gənc şahmatçıları komanda hesabı ilə I yerə çıxaraq, turnirin qalibi olub. Oğuz şəhər 3 saylı məktəb-liseyin komandası II yerə, Xaçmaz 1 nömrəli tam orta məktəbin komandası isə III yerə çıxıb.

Qalib komandalara Oğuz rayon icra hakimiyyətinin, Oğuz rayon Təhsil Şöbəsinin, YAP Oğuz rayon təşkilatının fəxri fərmanlarının, diplomlarının və qiymətli hədiyyələrinin verilməsi nəzərdə tutulub.

**ZÜMRÜD**

# Ağcabədidə Ümummilli Liderin Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə tədbirlər davam edir

Ağcabədi rayonunda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə silsilə tədbirlər davam edir. Dünən Ağcabədi rayonunun ümumtəhsil məktəblərinin şagirdləri arasında “Əbədiyaşar Lider” mövzusunda keçirilən inşa müsabiqəsinə və şahmat turnirinə yekun vurulmuşdur.



Yarışlarda I yer tutanlar 10 may 2018-ci il tarixdə Heydər Əliyev meydanında keçiriləcək ümumrayon tədbirində, II və III yerləri tutanlar isə keçirilən digər tədbirlərdə YAP Ağcabədi rayon təşkilatının Fəxri Fərmanı və hədiyyələrilə mükafatlandırılacaq.

**ZÜMRÜD**

# Dövlət sərhədini pozan əcnəbilər saxlanılıb



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri uğurla davam etdirilir. 29 aprel 2018-ci il tarixdə DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində 4 nəfər əcnəbi vətəndaş tərəfindən dövlət sərhədinin pozulmasının qarşısı alınmışdır.



Hadisə Dövlət Sərhəd Xidmətinin “Şəmkir” sərhəd dəstəsinin xidməti ərazisində baş vermişdir. Həmin tarixdə Ağstafa rayonunun Sadıxlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədini pozarkən, 4 sərhəd pozucusu saxlanılmışdır. Araşdırma zamanı Azərbaycan Respublikasından Gürcüstan istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən şəxslərin Hindistan vətəndaşları - 1995-ci il təvəllüdlü Dhak Mazara, 1993-cü il təvəllüdlü Singh Sukhdeep və Pakistan vətəndaşları - 1969-cu il təvəllüdlü İmtiaz Muhammed, 2002-ci il təvəllüdlü Həsən Əli olması müəyyən edilmişdir. Sərhəd pozucularının üzərinə baxış zamanı 2 ədəd mobil telefon, 4 ədəd pasport, 2 ədəd simkart, 3 ədəd kredit kartı, 500 avro, 357 ABŞ dolları, 63 Azərbaycan manatı, 5190 Pakistan rupisi aşkar olunmuşdur.

Araşdırma zamanı saxlanılmış sərhəd pozucularının Azərbaycan Respublikası ərazisinə rəsmi qaydada daxil olmaları, Avropa ölkələrinə getmək məqsədilə dövlət sərhədini pozaraq Gürcüstan ərazisinə keçməyə cəhd göstərmələri müəyyən edilmişdir.

Saxlanılmış şəxslər barəsində zəruri əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

**NƏZAKƏT**

# Putini narahat edən erməni qiyamı

## *Yaxud Qərb-Rusiya qarşıdurması fonunda daha hansı faktlar üzə çıxır?*

***Ermənistanda cərəyan edən xaos və anarxiyadan sonra Rusiya prezidenti Vladimir Putinin Ermənistanın prezidenti Armen Sarkisyanla yaranmış vəziyyəti müzakirə etməsi ilk öncə belə qənaətə gəlməyə zəmin yaradır ki, hazırda Qərbin hadisələri öz nəzarəti altına alması cəhdləri və həmin cəhdlərin uğurlu nəticələri Kremli ciddi şəkildə narahat etməyə başlayıb. Çünki qiyamçıların lideri Nikol Paşinyan da müraciətlərini, bilavasitə, qərbmeylli tərzdə səsləndirir, bu isə rəsmi Moskvanın forpostu rolunu oynayan vassal Ermənistanın get-gedə əldən çıxması mümkünlüyünü reallaşdırır. Əbəs deyil ki, müzakirələr əsnasında daxili böhranın tezliklə həll edilməsi, bu istiqamətdə cavabdehlik daşıyan siyasi güclərin konstruktiv dialoqa getməsi vacibliyi və s. bənzər məsələlər müzakirə olunub.***







### Serj Sarkisyanın baş nazir seçilməsindən sonra onu ilk olaraq məhz Putin təbrik etmişdi

Digər maraqlı məqam erməni mediasının proseslər ətrafında işıqlandırdığı yazı və münasibətlərdir ki, onlardan biri Ermənistanın müxalifətmeylli "1in.am" saytında qeyd olunub. Saytının analitik yazarı, erməni müəllif Sarkis Artsruniyə görə, formal mənada Rusiya Federasiyasının müttəfiqi sayılan ölkədə baş verən dramatik hadisələrlə maraqlanması anlaşılandır. Halbuki, Moskva rəsmi şəkildə Ermənistanda baş verən olaylara qarışmadığını bəyan edib. "Digər tərəfdən, Moskvanın Ermənistandakı "məxməri inqilaba" verdiyi reaksiyasında digər ilginc mənzərə nəzərə çarpmağa başlayır"-yazan erməni müəllif qeyd edir ki, daha öncələr baş vermiş hadisələrdən fərqli olaraq, Moskva budəfəki hakimiyyət dəyişikliyinə göz yummaq taktikasına - Ermənistan hakimiyyətinə dəstək göstərməməyə üstünlük verdi. Hansı ki, Serj Sarkisyanın baş nazir seçilməsindən sonra onu ilk olaraq məhz Putin təbrik etmişdi.

### Rus elitasında Ermənistanı əldə saxlamaq üçün Serj Sarkisyanı qurban vermək barədə ümumi razılaşma da olub

Erməni müəllif digər məqama da toxunaraq yazır ki, Moskva sanki S.Sarkisyanın gedişini proqnozlaşdırmışdı, hətta dolayısı ilə bu prosesdə iştirakçıya da çevrilmişdi. Belə ki, rus elitasında Ermənistanı əldə saxlamaq üçün S.Sarkisyanı qurban vermək barədə ümumi razılaşma da olub. Məhz bu kimi faktları incələyərkən, Ermənistanın Qərb cinahında yer ala bilməməsi istiqamətində Moskvanın bu kimi planlarının olduğu üzə çıxmaqdadır. "Mümkündür ki, Moskvanın Ermənistanda baş verən qiyamın birinci mərhələsinə loyal yanaşması da özündə bu amilləri ehtiva etməkdədir"- deyə erməni analitiki məqaləsində yazır.

S.Artsruniyə görə, vəziyyət köklü şəkildə S.Sarkisyanın istefasından sonra dəyişildi. O zamandan sonra ki, Ermənistanda genişlənən siyasi hərəkat bütünlüklə mövcud sistemin ləğv olunması tələbini irəli sürdü: "Məsələ ondadır ki, Ermənistanın kriminal-oliqarx sistemi erməni-rus vassal münasibətlərinin əsas simvoludur. Ermənistanda bu sistem 1999-cu ilin 27 oktyabr və 2008-ci ilin 1 mart qanlı hadisələrində "korrekte" olundu. Putin, sadəcə, Ermənistandakı hadisələrə ona görə müdaxilə etdi ki, həqiqətən də kriminal-oliqarx sistemin ölkəmizdə məhv olmasından ehtiyat edir. Çünki bu sistem olmasa, erməni-rus münasibətləri radikal şəkildə dəyişilə bilər".

### Rus elitası erməni qiyamı presedentinin Rusiya cəmiyyətinə və Rusiyanın nəzarətində olan Avrasiya İttifaqı ölkələrinə də sıza biləcəyindən ehtiyat edir

Göründüyü kimi, erməni analitiki burada digər bir məsələyə - Ermənistanda uzun illərdən bəri formalaşmış oliqarx-kriminal sistemin dağılma ehtimalının, bütövlükdə, Rusiyanın maraqlarına xidmət etmədiyinə eyham vurur. Yəni bir tərəfdən Qərbin nəzarətinin güclənməsi, digər tərəfdən isə kriminal sistemin çöküşü Şimal ölkəsində də mövcud olan bənzər sistemə zərbə vura bilər. "Başqa tərəfdən, rus elitası erməni qiyamı presedentinin Rusiya cəmiyyətinə və Rusiyanın nəzarətində olan Avrasiya İttifaqı ölkələrinə də sıza biləcəyindən ehtiyat edir ki, bu da Putinin sözdə siyasi modelinə zərbə vurmaq ehtimalını artırır"-deyə S.Artsruni yazır. SİTAT: "Putin Rusiyanın Ermənistanı total nəzarətində saxlamaq üçün oliqarx sisteminin qorunmasına çalışır. Belə bir vəziyyət söz yox ki, erməni "məxməri inqilabı"nın motivizə olunmasına yeni güc verir. Bu kontekstdə Karen Karapetyanın baş nazir kimi saxlanılması Ermənistanın "abxaziyalaşdırılmasına" səbəb ola bilər".

Erməni müəllif Yerevan meydanlarının bundan sonra da davamlı kütlələrlə təmin olunması vacibliyinə toxunur və bu halda Moskvanın müdaxilələrinin reallaşa bilməyəcəyini yazır. Beləliklə, fakt budur ki, Rusiya Ermənistana nəzarətini əlində saxlamaq naminə Qərblə münasibətlərini daha da mürəkkəbləşdirə bilər. Əgər qiyamçıların lideri Nikol Paşinyan bir addım geri çəkilərsə, bu günə qədər əldə etdiyi uğurları bir andaca itirmək təhlükəsini yaşaya bilər. Hətta Ermənistan indikindən də ağır duruma düşüb, süqut buxovundan qurtula bilməz. Ümumiyyətlə, son proseslər də bu faktorları açıq-aydın göstərməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***



# İsa Qəmbər müalicə adı ilə getdiyi Almaniyada qapalı görüşdə iştirak edib

***Müxalifət daxilində baş verən ikitirəlik və qarşıdurmalar son günlər daha gərgin xarakter almaqdadır. Xüsusilə də, mitinqlərin uğursuzluqla nəticələnməsindən sonra xarici fondlarla AXCP və Müsavat kimi partiyalarla münasibətlərində soyuqluq yaranıb. Elə bir soyuqluq ki, artıq həmin fondlar Müsavat və AXCP-yə maliyyə yardımları ayırmaqdan imtina edirlər. Bu isə, müxalifət üçün siyasi intihara bərabərdir. Bundan sonra fəaliyyət göstərmək və mitiqlər keçirmək ciddi problemə çevriləcək. Proseslərə əsasən, demək olar ki, artıq xarici təşkilatlarla müxalif partiyalar arasında yaranan soyuqluğun mənfi nəticələri özünü göstərməkdədir.***



Müsavat və AXCP-nin aparatında çalışanlar, 3 aydır ki, aylıq maaşlarını almırlar, bu, azmış kimi, mitinqlərin təşkili və keçirilməsi də mümükünsüz olub. Vəziyyət o dərəcədə kritik xarakter alıb ki, Almaniyada müalicədə olan Müsavatın keçmiş başqanı İsa Qəmbər ağır xəstə olmasına baxmayaraq, böyük bossları ilə görüşmək üçün xəstəxananı tərk edib. Ancaq niyyəti və məqsədi uğursuzluğa düçar olub. Bu barədə, bizə məlumat verən mənbənin dediyinə görə, "Kolden" otelində böyük bosslarla keçirilən qapalı görüşdə, İ.Qəmbər sağlamlığını daha da ağırlaşdıran fikirlər eşitməli olub. Görüşdə Müsavatın keçmiş başqanı Azərbaycan müxalifəti ilə əlaqələr, münasibətlər qurulmayacağı və bir daha onları narahat etməyəcəyi haqda dediklərini eşitməli olub. Səbəb də, AXCP və Müsavat kimi partiyaların üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirə bilməməsi göstərilib.

### Əli Kərimli və Arif Hacılı gözlərini Avropaya dikiblər

Müsavat və AXCP funksionerləri Avropadakı ağaları ilə yeni əlaqələr qurmaq üçün yollar arayırlar. Bəlkə də, istəklərinə çatacaqlar. Çünki Avropada elə qaranlıq və məkirli dairələr var ki, onlar Azərbaycana qarşı öz pozucu niyyətlərini həyata keçirmək üçün məqam axtarırlar. Cəmil Həsənli, Əli Kərimli və Arif Hacılı kimi öz ölkələrinə düşmən kəsilən şəxsləri aşkar edən kimi, onlarla əlaqə quracaq və müəyyən sövdələşmələr əsasında pul ayıracaqlar. Təbii ki, həmin maraqlı dairələr müxalif ünsürlərin öz dövlətlərinə xəyanət etdiklərinin, alınan pulları şəxsi maraqlarına xərclədiklərini bilirlər. Bu, onları narahat da etmir. Əsas odur ki, öz təxribatçı maraqlarının təmin edilməsində əlaltıları fəallıq göstərsinlər, ortaya ciddi iş qoysunlar. Ancaq bu, reallıqdır ki, nə təxribatçı dairələrin, nə də onların ölkəmizdə qulbeçəsinə çevrilən əlaltılarının planları reallaşa bilməz.

### "GAP" vəziyyəti öz xeyrinə dəyişməyə çalışır

Müxalifət daxilində yaranan pərakəndəlikdən yararlanmağa çalışan R.Quliyev Bakıdakı muzdlu işçi kontingentinə müəyyən tapşırıqlar verib. Bu dəfə də onun istifadə etdiyi metod ikrah doğurur. Belə ki, barmaqla sayılacaq qədər üzvü olan "Gələcək Azərbaycan Partiyası" öz fəaliyyətsizliyini örtbasdır etmək və özünü cəmiyyətə "əsl müxalifət" partiyası kimi sırımaq üçün piketlər keçirməyi planlaşdırır. R.Quliyevin təqdim etdiyi plana əsasən, "GAP"çılar icazəsiz olaraq piket keçirməli, polislərə müqavimət göstərməli, dağıdıcı addımlar atmalı və ən nəhayət, həbs edilməlidirlər. Bəli, icazəsiz aksiya keçirib həbs edilmək, səs-küy salmaq, özlərini "siyasi məhbus" kimi siyahıya saldırmaq və yaxud da, bir neçə günlük həbsdən sonra "təzyiq"lərə məruz qaldıqlarını iddia edərək, "siyasi mühacir" kimi ölkədən getmək bunların əsas məqsədidir. Ən başlıcası isə, ölkədə əsas aparıcı müxalifət partiyasına çevrilmək. Məqsədə nail olmaq üçün Şakir Ağasıoğlunun rəhbərliyi ilə "GAP" təmsilçiləri Müsavat və AXCP-ni tamamilə sıradan çıxarmaq üçün, sosial şəbəkələr vasitəsi ilə, anti-təbliğat kampaniyası aparırlar. Bu baxımdan, "Gələcək Azərbaycan Partiyası" ilə AXCP arasındakı münasibətlər daha da gərginləşib. Hətta vəziyyət o həddə çatıb ki, artıq hər iki partiyanın rəhbərliyinin tapşırıqları ilə partiya üzvləri təkcə sosial şəbəkələrdə bir-birilərini təhqir etmir, həm də bir-birinin ünvanlarına təhqiredici məktublar göndərirlər. Tərəflərarası qarşıdurma yenicə qızışıb. Yəqin ki, hələ qabaqda AXCP ilə "GAP" arasında yeni qalmaqallar və ittihamlar baş verəcək. Bu qarşıdurmada kimin önə çıxacağını demək çətin olsa da, real olan fakt odur ki, onlar "biri beşə, beşi də birə dəyməz"lər.

*İ.ƏLİYEV*

# "Quska" açdı sandığı, tökdü pambığı

## *Kriminal ünsür törətdiyi cinayətlərini etiraf edir*

***Türkiyədə həbs olunaraq Azərbaycana gətirilən "Quska" ləqəbli Hüseyn Abdullayevin cinayət işi üzrə istintaq davam edir. Artıq ona qarşı yeni vergi cinayətləri ilə bağlı ittihamlar da irəli sürülüb. Bu arada onu da xatırlatmaq olar ki, ümumilikdə, 1 milyon 810 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmaqda və xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə, razılıq almadan tikinti-quraşdırma işlərini həyata keçirərək, 966 min manat məbləğində gəlir əldə etməsinə əsaslı şübhələr olduğundan H.Abdullayevə qarşı Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci maddələri ilə yenidən ittiham elan edilib.***



Bu ittihamlarla 12 il azadlıqdan məhrum edilməsini gözə alan H.Abdullayevin, necə deyərlər, "sandığı açaraq, pambıqları tökməkdən" başqa çarəsi qalmır. Düzdür, onun digər cinayətləri də var və onlar da bu ittihamların üzərinə əlavə edilərsə, o, həyatının çox hissəsini dəmir barmaqlıqlar arasında keçirməli olacaq.

### "Quska"nın təlimatçısı Abbas Abbasovdur...

Misal üçün, artıq o da bəllidir ki, H.Abdullayev Avropadakı "söyüş müxalifəti"nin həm xaricdəki, həm də Azərbaycandakı "kurator"ları barədə məlumatlıdır və həmin təlimatçılardan biri vaxtilə Rusiyada "Milyarderlər İttifaqı"nın aparıcı üzvlərindən olmuş, eləcə də, dağıdıcıyönümlü "Milli Şura"nın yaradılmasında canfəşanlıq etmiş Abbas Abbasovdur. Bu barədə Türkiyə mediasında da müəyyən faktlar yazılıb. Türkiyə polisinin apardığı araşdırmalardan sonra məlum olub ki, H.Abdullayevin, əsasən, Türkiyədə yaşayan A.Abbasovla əlaqələri var və de-şifrə edilməsi də oradan qaynaqlanır. Çünki onların bir neçə dəfə görüşməsi ilə bağlı qardaş ölkənin hüquq-mühafizə orqanlarında tutarlı dəlillər var.

Artıq belə ehtimal etmək mümkündür ki, həmin dəlillər videolara və telefon danışıqlarına əsaslanır. A.Abbasovun Avropadakı "söyüş müxalifəti" qrupuna da, məhz "Quska" ilə birgə sponsorluq etdiyi artıq dəqiqləşdirilib.

Digər tərəfdən, H.Abdullayevin həbsindən bir neçə gün əvvəl A.Abbasovun anidən Türkiyəni tərk edərək, Moskvaya getməsi də bu müəmmaları üzə çıxarmış olur. Belə desək, Azərbaycan hüquq-mühafizə orqanları türkiyəli həmkarları ilə əməliyyat hazırlıqlarında olarkən, artıq A.Abbasov qəfil ortadan yoxa çıxıb və bu amil də onun Azərbaycan əleyhinə fəaliyyətinin məntiqi təsdiqidir.

### Hüseyn Abdullayev ortalıqda tək buraxılıb və o da qisasını alacaq

Həmçinin, "Quska"nın ortalıqda tək qalması təmsil olunduğu qrup üzvlərindən digərlərinin də ifşa olunmasına səbəb olacaq. O, ortalıqda tək qalmasını kimsəyə bağışlamayacağını və qisas alacağını etiraf etməkdədir. Məsələn, dövlətin ona etibar etdiyi postuna xilaf çıxaraq, qiyamçı səfir adını almış Arif Məmmədovun də qrup üzvü olduğu üzə çıxmaqdadır.

Beləliklə, faktlar üzə çıxdıqca, dağıdıcı müxalifətin Avropadakı dəllallarının da dairələri daralmağa başlayır və bu dairənin yaxın zamanda tamamilə qapanacağı, günahkarların, dövlət xainlərinin isə cinayət məsuliyyətinə cəlb olunacaqları gün elə də uzaqda deyil.

*Rövşən NURƏDDİNOĞLU*

# Saxta dollar dəyişmək istəyən əcnəbilər saxlanılıb

Daxili işlər orqanlarının əməkdaşları saxta pulların hazırlanması və dövriyyəyə buraxılmasının qarşısının alınması istiqamətində növbəti uğurlu əməliyyat keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən SİA-ya bildiriblər ki, Yasamal rayonu Şərifzadə küçəsində yerləşən banklardan birinin filialında xarici ölkə vətəndaşları olan üç əcnəbi külli miqdarda saxta ABŞ dolları dəyişməyə cəhd göstərib. Onların bu niyyətlərinin qarşısı bankda xidmət aparan Yasamal Rayon Mühafizə İdarəsinin əməkdaşı tərəfindən alınıb. Qısa zaman kəsiyində hadisə yerinə cəlb edilən idarənin tutucu qrupunun əməkdaşları həmin şəxsləri saxlayaraq aidiyyəti üzrə polis idarəsinə təhvil veriblər.



Araşdırma aparılan zaman saxlanılan şəxslərin Çin Xalq Respublikasının vətəndaşları Çen Menq Lin, Lin Ji Fanq və Rusiya Federasiyası vətəndaşı Məhəmmədrəsul Rəsulov olduqları müəyyənləşib. Saxlanılan şəxslərdən ümumilikdə 18 min 900 saxta ABŞ dolları müəyyən edilərək maddi sübut kimi götürülüb. İlkin ifadələrində həmin şəxslər saxta əsginasları satmaq, həmçinin paytaxt ərazisində yerləşən ticarət mərkəzlərində istifadə etmək niyyəti ilə ölkə ərazisinə gətirdiklərini etiraf ediblər. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. Zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Masallıda məscidi soyanlar tutulub

Masallı rayonunun Aşurlu kənd məscidindəki seyfdən xeyli miqdarda pul oğurlanıb. DİN-dən SİA-ya verilən məlumata görə, nazirliyin Kriminalistik Tədqiqatlar İdarəsi və Masallı RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 24-də Aşurlu kənd məscidindəki seyfdən 2300 manat, 1300 ABŞ dolları və 16400 rubl (440 manat) oğurlamaqda şübhəli bilinən Cəlilabad rayon sakinləri Əli Zeynalov və Nizami Mahmudov saxlanılıblar. Onların əvvəllər də məhkum olunduqları bildirilir.

# Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dəyərləri haqqında

***Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dəyərləri haqqında demişdir: "1918-ci il mayın 28-də ilk Azərbaycan Demokratik Cümhuriyyətininyaranması dünyaya bəyan edildi. Azərbaycan xalqının tarixində böyük və əlamətdar bir hadisə baş verdi. Azərbaycan xalqı öz milli azadlığını və müstəqilliyini əldə etməyə başladı.***

İlk demokratik cümhuriyyətin elan edilməsi o zaman Azərbaycana qarşı xaricdən və daxili düşmənlər tərəfindən olan təcavüzlər və o dövrdəki qarmaqarışıqlar xalqımızın həyatının gərgin bir şəraitində olmuşdur. Buna görə də ilk Azərbaycan Demokratik Cümhuriyyətinin, onun hökumətinin fəaliyyəti ağır və çətin bir şəraitdə keçmişdir. 1918-ci ilin sentyabr ayında ilk Azərbaycan Demokratik Cümhuriyyətinin hökuməti Gəncədən paytaxtımız Bakıya gəlməyə nail olmuş və öz fəaliyyətini davam etdirmişdir.

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin, məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik və azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları və ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

Çoxəsirlik tariximizi bizim doğma sərvətimiz hesab edən Ulu Öndər Heydər Əliyev deyirdi: "1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti də bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq səhifələridir, xalqımızın böyük nailiyyətləridir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, elmi, intellektual, həm də mədəni potensialını yaradıbdır. Biz bu gün, bu milli bayramı - Respublika Gününü qeyd edərkən XX əsrdə xalqımızı irəliyə aparmış elmimizi, mədəniyyətimizi, iqtisadiyyatımızı inkişaf etdirmiş insanların hamısını böyük hörmət və ehtiram hissi ilə minnətdarlıqla yad edirik".

1991-ci ildə dünyadakeçmiş SSRİ-də gedən obyektiv ictimai-siyasi proseslərin nəticəsində Sovetlər İttifaqı dağıldı. Bunun nəticəsində Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının əsrlərdən-əsrlərə keçib gələn arzusuna çatdığını 1918-ci ildə dadını duyduğu milli azadlıq dövlət müstəqilliyi əldə edə bildiyini qeyd edərək deyirdi: "1991-ci ilin sonunda Azərbaycan Respublikası öz dövlət müstəqilliyini elan etdi. Artıq beşinci ildir ki, biz müstəqil dövlət kimi yaşayırıq. Bu, Azarbaycan xalqının ən böyük nailiyyətidir.

Əgər XX əsrin əvvəlində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük bir addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olubdur. Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Eyni zamanda, bu, XX əsrin əvvəlindən sonunadək xalqımızın qəlbində yaşayan hissiyyatların, xalqımızın içində gedən proseslərin məntiqi nəticəsidir.

Dövlət müstəqilliyi bizim əziz nemətimizdir. Bu gün biz 28 May Gününü qeyd edərkən Azərbaycanın müstəqillik, istiqlaliyyət bayramını qeyd edirik. Xalqımız bu müstəqilliyi qəbul edib, bundan sonra başqa bir quruluş və dövlət qəbul edə bilməz. Nəhayət, biz öz taleyimizin, ərazimizin, torpaqlarımızın sahibiyik, özümüz-özümüzə hakimik. Bu gün, Azərbaycanın milli bayramı günü, Mən bəyan edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qoruyub-saxlamaqdan və əbədi etməkdən ibarətdir. Bir prezident kimi, bu gün bəyan edirəm ki, bu vəzifəyə, bu məqsədlərə Mən daim sadiq olacağam.

Azərbaycan xalqı öz dövlət müstəqilliyini ikinci dəfə də çox ağır və çətin bir şəraitdə əldə edibdir. Azərbaycan 1991-ci ilin sonunda öz dövlət müstəqilliyini elan edən zaman artıq Ermənistan tərəfindən hərbi təcavüz altında idi. Torpaqlarımızın bir qismi artıq işğal olunmuşdu. Bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulmuşdu. Başqa məntəqələrimiz daim atəş altında idi. Xalqımız öz ərazi bütövlüyünü qoruyub-saxlamaq üçün çalışırdı, vuruşurdu. Azərbaycanın dövlət müstəqilliyi, məhz belə bir zamanda dövrdə elan olunubdur. Elə buna görə də, Azərbaycanın dövlət müstəqilliyi elan olunandan indiyədək respublikamız ağır və çətin proseslər içindədir.

Dövlət müstəqilliyimizi qoruyub-saxlamaq üçün ən əsas amil Azərbaycanı Ermənistan təcavüzündən xilas etməkdir ki, bir çox səbəblərə görə, bu təcavüz nəticəsində Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş bu ərazilərdən Azərbaycanın bir milyondan çox vətəndaşı zorla qovulub, çıxarılıb, yerindən-yurdundan didərgin düşüb, indi çadırlarda yaşayırlar. Bu, yəni Azərbaycan torpaqlarının işğal olunması və işğal olunmuş torpaqlardan vətəndaşlarımızının çıxarılması, onların çadırlarda ağır şəraitdə yaşaması qəlbimizin böyük yarasıdır. Ermənistan təcavüzü Azərbaycanı yaralayıbdır. Bu yara böyük, ağır yaradır. Bu yara odur ki, torpaqlarımızın bir qismi işğal altındadır. Bu yara ondan ibarətdir ki, bir milyondan çox əhalimiz köçkün vəziyyətindədir, ağır şəraitdə, çadırlarda yaşayır. Bu, bizim dərdimizdir. Bu, xalqımızın başına gələn bəladır. Bunun səbəbləri məlumdur. Bu gün bu barədə izahat verməyə ehtiyac yoxdur. Mən bu faktı, sadəcə, qeyd edirəm".

Ulu Öndər Azərbaycan xalqını bu bəladan qurtarmağı əsas vəzifə hesab edərək demişdir:

"Bu gün, bu bayram günü qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünü qorumaq, torpaqlarımızın müdafiəsi uğrunda, Ermənistan təcavüzünə qarşı apardığı müharibədə xalqımız böyük itkilər və qurbanlar veribdir. Azərbaycanın igid övladları qəhrəmancasına döyüşüblər, vuruşublar, şəhid olublar, canlarını qurban veriblər. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü yolunda, torpaqlarımızın müdafiəsi yolunda canlarını qurban vermiş Azərbaycan övladlarının xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Eyni zamanda, biz o igidlik nümunələrindən istifadə edərək, xalqımızda qəhrəmanlıq əhvali-ruhiyyəsini daha yüksəklərə qaldırmalıyıq. Bu, bizim müstəqilliyimizi, ərazi bütövlüyümüzü qorumaq üçün əsas şərtdir, əsas amildir.

Bildiyiniz kimi, 2 il bundan öncə, müharibə dayandırılmışdır. Ermənistan ilə Azərbaycan arasında döyüşlərdə atəşkəs haqqında sazişə razılıq vermişik, məsələnin sülh yolu ilə həll olunması üçün çox səylər göstərmişik və bu gün də göstəririk. Biz hesab edirik ki, iki il bundan öncə düz addım atmışıq və doğru qərar qəbul etmişik. Bu qərar yalnız və yalnız Azərbaycan xalqının sülhsevər xalq olduğunu dünyaya bir daha nümayiş etdirir. Amma eyni zamanda, bu qərar məsələnin sülh yolu ilə həll olunub Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi üçün qəbul olunubdur.

Bu iki il müddətində görülən işlər sizə məlumdur. Biz bütün imkanlardan istifadə etmişik. Beynəlxalq təşkilatların, böyük dövlətlərin imkanlarından, Ermənistan ilə birbaşa aparılan danışıqlardan, bütün başqa imkanlardan istifadə etmişik və edirik. Bu proses davam edir. Bu gün ümidvar olduğumu bildirmək istəyirəm ki, Azarbaycan dövlətinin, Azərbaycan xalqının sülhsevər siyasəti öz nəticəsini verəcək və Azərbaycanın işğal olunmuş torpaqlarının sülh yolu ilə azad edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün bərpasına, sərhədlərinin toxunulmazlığına nail olacağıq. Bu, o deməkdir ki, biz heç vaxt ərazimizin, torpağımızın bir qarışını belə heç kəsə bağışlaya, verə bilmərik".

XX əsrin əvvəllərində itirilmiş, ermənilərin işğal etdiyi Azərbaycan əraziləri haqqında ürək ağrısı ilə danışan Ulu Öndər Heydər Əliyev deyirdi: "Biz heç kəsin torpağına göz dikmirik, baxmayaraq ki, keçmiş zamanlarda Azərbaycanın torpaqlarının bir qismi əlindən gedibdir. Xalqımız əldən getmiş torpaqların nisgilini indi də çəkir. İndi də Göyçə mahalı, Zəngəzur deyəndə xalqımızın ürəyi ağrıyır, xalq o torpaqların arzusu ilə yaşayır. Amma eyni zamanda, Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edərkən beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədləri çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik. Bu barədə bizim təkliflərimiz aydındır: Ermənistanın silahlı dəstələri işğal olunmuş ərazilərdən cıxmalı, Azərbaycanın ərazi bütövlüyü təmin edilməli, Azərbaycan beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlərinin sahibi olmalıdır. Dağlıq Qarabağ münaqişəsinin tamamilə aradan qaldırılması üçün Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verməyə hazırıq. Biz bu şərtlər əsasında danışıqlar aparırıq və həmin şərtlər daxilində tam sülhün əldə edilməsini istəyirik və buna nail olmağa çalışacağıq. Dünya da bilməlidir ki, bizim şərtlərimiz ədalətlidir, sülhsevər şərtlərdir. Eyni zamanda, yenə də deyirəm, biz ərazimizin hər bir qarışını qoruyacağıq, onun sahibi olmağa çalışacağıq. Əgər bu şərtlər çərçivəsində istədiyimizə nail olmasaq, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın, gücümüzün bahasına biz işğal olunmuş torpaqlarımızı azad edib Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik. Buna hamı əmin ola bilər".

***Vahid Ömərov,***
***fəlsəfə ürə fəlsəfə doktoru***


Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 3 may

## Yuxudan doymamaq yuxu pozuntusu əlamətidir



Yuxusuzluq təkcə yuxu çatışmazlığı ilə xarakterizə olunmur. Normal yata bilməmək, gec yuxuya getmək və erkən oyanmaq da narahatlıq doğuran məsələdir. AZƏRTAC xəbər verir ki, yaxşı yuxu gün ərzində daha gümrah olmaq və gözəl görünmək üçün əsas şərtlərdən sayılır. İnsan gün ərzində orta hesabla 7-8 saat yatmalıdır. Lakin bununla belə yuxuya olan tələbat fərdi olaraq dəyişə bilər. Təkcə normadan az yatanda deyil, lazım olduğundan çox yatanda da yuxu nizamsızlığı baş verir. Sağlam orqanizm ona lazım olan yuxunun qədərini müəyyən edə bilir.

Mütəxəssislərin dediyinə görə, yuxu problemi 90 faiz hallarda psixoemosional problemlərdən, əsasən də nevroz nəticəsində yaranır. Yuxu pozulması ilk növbədə əsəb problemi olması deməkdir. Eyni zamanda, yuxu nizamsızlığının da özünəməxsus növləri var. Həmin növlərə yuxuyagetmə saatından asılı olmayaraq hər gün eyni vaxtda oyanmaq, yuxudan doymamaq, rahat yata bilməmək daxildir. Uzun müddət davam edən yuxu problemləri təzyiqin, şəkərin yüksəlməsi, ürək döyüntülərinin sayının artması və piylənmə kimi problemlərə səbəb ola bilər. Onu aradan qaldırmaq üçün ilk növbədə nizamsız yuxunun səbəbini tapmaq lazımdır. Yuxudan doymamaq da düzgün olmayan yuxu və yuxu pozuntusu əlamətidir.

## XƏBƏRDARLIQ: Onları yeməklərə qatmayın!



Ətsiz yeməklər və ya şorbalar bişirəndə həmin xörəyin içinə, adətən, mağazalarda satılan hazır ət bulyonları alıb qatırıq. Bu bulyonlar yeməklərimizə ətir və dad qatsa da, sağlamlıq baxımından zərərlidir. Ailem.az bir çox xəstəliyə səbəb olduğu deyilən ət və toyuq bulyonlarının sağlamlığa zərərini sadalayır. Ət bulyonlarının səbəb olduğu xəstəliklər arasında parkinson, epilepsiya, köklük və alzheimer kimi əhəmiyyətli sağlamlıq problemləri var. Ət və toyuq bulyonlarının bu qədər çox zərərli olmasının səbəbi isə tərkibində yer alan mono sodium qluatamat (MSG) maddəsidir.

MSG nədir?

MSG ləzzət artırıcı təsiri olan bir məhsuldur. Çin duzu olaraq bilinən bu məhsul çox istifadə edildiyi təqdirdə sinir hüceyrələrinə zərər verir, qaraciyəri zədələyir.

MSG həmçinin aşağıda sadalanan sağlamlıq problemlərinə yol açır:

- Sinir hüceyrələrinə zərər verir.
- Yağ yığıntısı ilə birlikdə köklük, qaraciyər zədəsi, diabet, insulin artımı kimi sağlamlıq problemlərinə səbəb olur.
- Epilepsiya (sara) xəstəliyinə səbəb olur.
- Mərkəzi sinir sisteminə zərər verərək alzheimer, parkinson, huntinqton xəstəliklərinin yaranmasına səbəb olur.

Hamiləlikdə zərərlidir.

Tərkibində MSG olan məhsullar arasında çips, ət bulyonları, dondurma, hazır şorba və rəngli yoqurtlar yer alır. Bu məhsulların, xüsusilə, hamiləlik dövründə istifadəsi çox təhlükəlidir. Hamiləlikdə bu məhsuldan istifadənin ən böyük zərəri plasentanı keçərək, birbaşa uşağa zərər verməsidir.

**ELAN**

"F.S." ASC səhmdarlarını 31 may 2018-ci il tarixində, saat 14:30-da illik ümumi yığıncağa dəvət edir.

**Gündəlik məsələ:**

1) "F.S." ASC-nin 2017-ci ilin yekunlarına dair illk hesabatının təsdiq edilməsi.

2) "F.S." ASC-nin cari məsələlərinin təhlili.

Yığıncaq Bakı şəh. Dərnəgül qəsəbəsi, 1999-cu məhəllə ünvanında keçiriləcəkdir.

## Formula 1 Azərbaycan Qran-Prisini 94 min tamaşaçı izləyib



Aprelin 27-29-da Bakıda keçirilən Formula 1 Azərbaycan Qran-Prisinə, həmçinin axşam konsertlərinə ümumilikdə 94 min tamaşaçı baxıb. AZƏRTAC "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinə istinadla xəbər verir ki, Formula 1-in ən sürətli şəhər halqasında baş tutan ötənilki yarışla müqayisədə bu il ümumi tamaşaçı sayında 31, bilet satışında isə 21 faiz artım qeydə alınıb. Bu il satılan biletlərin 77 faizi yerli azarkeşlərin payına düşür.

Formula 1 üzrə dünya çempionatının 4-cü yarışında iştirak etmək üçün Bakıya gələn əcnəbi azarkeşlərin sayı ötən illə müqayisədə 31 faiz artıb. Mövsümün gözlənilməzliklərlə və həyəcanverici anlarla dolu yarışına şahid olmaq üçün dünyanın 78 ölkəsindən avtoidman həvəskarları Bakıya təşrif buyurublar. Biletlərin təxminən dörddəbiri əcnəbi tamaşaçılar tərəfindən alınıb. Bakı şəhər halqasında üçüncü dəfə keçirilən yarış azarkeşlərin etimadını doğrulda bilib. Belə ki, həm yarışı yerində canlı, həm də bütün dünyada teleyayım vasitəsilə izləyən milyonlarla tamaşaçı uzun müddət yaddaşlardan silinməyəcək mübarizənin şahidi olublar.

## İki güləşçimiz Avropa çempionatının finalına yüksəlib



Rusiyanın Kaspiysk şəhərində böyüklər arasında güləş üzrə Avropa çempionatı davam edir. AZƏRTAC xəbər verir ki, ikinci yarış günündə 60, 67, 72, 82 və 97 kiloqram çəki dərəcəsində yunan-Roma güləşçiləri yarışıblar. Güləşçilərimizdən Rəsul Çunayev 3, Rafiq Hüseynov 2, Murad Məmmədov 1 görüşü qalib başa vuraraq yarımfinala yüksəliblər. Yarımfinal görüşündə Murad Məmmədov İtaliya, Rəsul Çunayev Gürcüstandan olan rəqiblərini üstələyib və finala adlayıblar. Finalda hər iki güləşçimizin rəqibi Rusiya təmsilçisi olacaq. Rafiq Hüseynov isə Belarus idmançısı ilə görüşdə məğlub olaraq bürünc medal görüşünə haqq qazanıb. Elman Muxtarov (67 kq) və Orxan Nuriyev (97 kq) təsəlliverici görüşə çıxacaqlar.

## "Real" Çempionlar Liqasının finalında!



Futbol üzrə UEFA Çempionlar Liqasında ilk finala vəsiqə qazanan Madrid "Real"ı olub. Zinəddin Zidanın baş məşqçi olduğu kollektiv yarımfinalda Almaniya "Bavariya"sını üstələyib. "Santyaqo Bernabeo" stadionunda keçirilən qarşılaşma 2:2 hesabı ilə heç-heçə başa çatıb. İlk görüşdə səfərdə 2:1 hesabı ilə qələbə qazanan ispanlar, iki oyunun nəticəsinə əsasən finala çıxıb. "Real" ardıcıl üçüncü dəfə finala vəsiqə qazanıb.

## Luis Hamilton Bakı mərhələsini karyerasında ən çətin yürüş adlandırıb



"Mercedes"in britaniyalı pilotu Luis Hamilton Formula 1 Azərbaycan Qran-Prisini karyerasında ən çətin yürüş adlandırıb. AZƏRTAC bu barədə xarici KİV-lərə istinadən xəbər verir. "Yəqin ki, bu, mənim yadımda qalan ən çətin yürüşdür. Daim əsən külək işimizdə çətinlik yaradırdı. Biz, demək olar, nəm asfaltda gedirdik; vəziyyət bu dərəcədə mürəkkəb idi. Yürüş gərginlik dərəcəsinə görə, yağışlı havadakına bənzəyirdi", - deyə L.Hamilton "F1Today" proqramının efirində bildirib. Xatırladaq ki, L.Hamilton komanda yoldaşı, "Mercedes"in finlandiyalı pilotu Valtteri Bottasın finişə çathaçatda yarışı dayandırmaq məcburiyyətində qalması nəticəsində qələbə qazanıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompyuter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**